

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 38 (24.420)

*21 sentyabr 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

# "Dəmir yumruğ"un təntənəsi – Dövlət Suverenliyi Günü



***Hərb tarixinin ən sərrast, ən adil əməliyyatı – lokal xarakterli antiterror tədbirləri***

Azərbaycan xalqı dünyanın yeganə xalqlarındandır ki, bütün meydanlarda olduğu kimi, müharibədə, döyüşdə belə humanistliyi, adilliyi qoruyub saxlamağı yaxşı bacarır. 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində çarəsiz vəziyyətə düşən düşməninə əl uzadan, halına acıyan, sülhsevər, yardımsevər olduğunu sübut edən xalqımızın qəhrəman nümayəndələri ötən il hərb tarixinin ən qısa, sərrast, adil əməliyyatını reallaşdırmaqla mühüm şanlı tarix yazdılar. Lokal xarakterli antiterror tədbirləri üç il öncəki məğlubiyyətdən dərsini lazımınca almayan başıpozuq topluma ən təsirli, acı mesajı ötürməklə həm də Müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"unun təntənəsinə çevrildi. Sitat: ***"...ağlınızı yığın başınıza. "Dəmir yumruq" buradadır, heç yerə getməyib, yerindədir. Bizi əsəbiləşdirməyin, özünüzü yaxşı aparın. Özünüzü yaxşı aparsanız, onda rahat yaşaya bilərsiniz. Yox, əgər bir daha bizə qarşı hər hansı bir təxribat, bəyanat, hərəkət olarsa, heç kimə baxmadan başınızı əzəcəyik. Heç kim də sizi müdafiə edə bilməz".***

Bəli, müharibədən ötən iki-üç il göstərdi ki, bu dardüşüncəli kiçik toplum Ali Baş Komandanın dediyi kimi, nəinki özünü yaxşı aparmağa, rahat yaşamağa cəhd göstərdi, əksinə, hər ötən gün daha cəfəng fikirlər irəli sürüb boş iddialarla çıxış edərək yeni savaş ocağı yaratdılar. Məğlubiyyətini Rusiyanın iştirakı ilə üçtərəfli Bəyanatı imzalamaqla rəsmiləşdirən Ermənistanın xunta rejimi qısa zamanda üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırdı.

Səhifə ➡ 8

## Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq **qərara alıram:**

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 19 sentyabr 2024-cü il*

## Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində müasir havalandırma, yanğın təhlükəsizliyi və siqnalizasiya sistemləri qurulacaq




Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyində müasir havalandırma, yanğın təhlükəsizliyi və siqnalizasiya sistemlərinin quraşdırılması nəzərdə tutulur. Artıq bununla bağlı Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən satınalma işlərinə başlanılmış, açıq tender elan edilmişdir.

Eyni zamanda muzeyin və Naxçıvan Dövlət Milli Dram Teatrının qarşısındakı parkda tikinti işlərinə başlanılacaq, müasir işıqlandırma sistemləri qurulacaqdır.

Bu istiqamətdə artıq layihələndirmə işlərinə start verilib.

*ABŞ-da nəşr olunan "Azerbaijan International" (Azərbaycan Beynəlxalq) jurnalının təsisçisi və baş redaktoru, jurnalist-tədqiqatçı Betti Bleyerin 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevdən aldığı ikinci müsahibə həmin jurnalın 1994-cu ilin (2.4) sayında ingilis dilində oxuculara təqdim edilib. Həmin vaxtdan 30 il ötməsinə baxmayaraq, Ümummilli Lider Heydər Əliyevin bütün dövrlər üçün əhəmiyyətli olan fikirlərini, siyasi baxımdan çətin dövrlərdə, neft müqavilələrinin imzalanması zamanı Azərbaycanın milli maraqlarının qorunması istiqamətində apardığı gərgin danışıqlar və yorulmaz fəaliyyətinin, eləcə də ozamankı Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində yürütdüyü müdrik və praqmatik siyasətinin incə detallarını ictimaiyyətə çatdıran həmin müsahibənin bugünkü aktuallığını nəzərə alıb onu ilk dəfə ingiliscədən Azərbaycan dilinə tərcümə edirik.*



# Əsrin neft müqaviləsi

***

1994-cü ilin 30 sentyabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azerbaijan International" jurnalının baş redaktoru Betti Bleyerə xüsusi müsahibə verib. Müsahibə Prezidentin Azərbaycana geri qayıtmasından bir neçə saat əvvəl, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının "Plaza" mehmanxanasının 30-cu mərtəbəsində Prezident üçün ayrılmış xüsusi lüks nömrədə gerçəkləşib.

***Betti Bleyer:*** *– İndi neft müqaviləsi imzalanmışdır və Azərbaycanda bir sıra ölkələr qeyd-şərtsiz əmlak hüququna malikdir; siz indi dünyanın bir çox tanınmış liderləri ilə görüşmək imkanı əldə etmisiniz. Qarabağ münaqişəsinin Azərbaycanın şərtlərinə uyğun – sülh yolu ilə həllinə daha çox yaxınlıq hiss edirsinizmi?*

***Heydər Əliyev:*** – Mən indi çox arxayınam, lazım olduğundan artıq, Azərbaycan Ermənistanla mövcud münaqişənin sülh yolu ilə həllinə nail olmağa daha yaxındır. Mənim hökumətimin bütün ilboyu, xüsusilə də yaxın həftələr ərzində yorulmaz səyləri bu problemin sülh yolu ilə həllinə nail olmaq istiqamətində davam etmişdir. Bu günlərdə bizim məqsədimiz haqq səsimizi dünya birliyinə çatdırmaq və Azərbaycan Respublikasının çətin vəziyyətinin real mənzərəsini təqdim etmək olmuşdur. Biz, eyni zamanda sülhə nail olmaq üçün mümkün olan imkanları yaratmaq istəmişik. Mən bütün bu hökumət və şirkətlərin ən yüksək səviyyəli vəzifəli şəxsləri ilə bu yaxınlardakı görüşlərimdə münaqişəyə son qoyulması məqsədilə xalqımın böyük arzusunu və Azərbaycan hökumətinin yekdil və aydın mövqeyini bildirmişəm.

Dörd gün əvvəl (26 sentyabrda) burada, Nyu-Yorkda Prezident Klinton ilə keçirilmiş çox mühüm tarixi görüşdə, mən qeyd-şərtsiz münaqişənin sülh yolu ilə həlli üçün Azərbaycanın şərtlərini izah etdim. Mən ona dedim ki, biz aşağıdakı məsələlərdə güzəştə getməyi istəmirik:

1. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın bütün silahlı qüvvələrinin çıxarılmasının təkidlə tələb olunması;

2. Erməni təcavüzünün nəticəsində öz evlərini tərk etməyə məcbur olmuş bir milyondan artıq Azərbaycanın qaçqın vətəndaşının qayıtması;

3. Azərbaycanın ərazi bütövlüyünün və müstəqil suverenliyinin təminatı.

Prezident Klintonun Dağlıq Qarabağ məsələsinə xüsusi diqqəti məndə dərin təəssürat yaratdı. O mənə məlumat verdi ki, onun Rusiyanın Prezidenti Yeltsin ilə qarşıdan gələn görüşünün gündəliyində duran bəzi vacib problemlərdən biri də Azərbaycan və Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsidir.

Bizim birlikdə müzakirə etdiyimiz digər məsələlər isə ölkələrimiz arasında sosial, siyasi və iqtisadi əlaqələr haqqında oldu. Əlbəttə, biz 20 sentyabrda Azərbaycanda doqquz şirkətdən dördünün Amerikaya aid olduğu Qərb Neft Konsorsiumu və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında imzalanan Neft müqaviləsinin (1994-cü il 20 sentyabr tarixdə Bakı şəhərində imzalanan "Əsrin müqaviləsi"ni nəzərdə tutur – S.A) əhəmiyyətindən bəhs etdik.

Bildiyiniz kimi, daha əvvəl o bu müqaviləni "tarixdə ən böyük müqavilələrdən biri" adlandıraraq mənə bu münasibətlə təbrik məktubu göndərmişdi. O, Neft müqaviləsinin Azərbaycan xalqının rifahı, iqtisadi inkişafı və sabitliyinin təmin olunması ilə yanaşı, Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin həlli üçün əsas rol oynayacağına əminliyini bildirdi.

Bu həftə başqa görüşlərdə mən Birləşmiş Millətlər Təşkilatının Baş katibi, cənab Butros – Qali və İngiltərənin, Fransanın, Almaniyanın, Türkiyənin və İranın xarici işlər nazirləri ilə Ermənistanın təcavüzü nəticəsində işğal olunan respublikamızın vəziyyəti haqqında birbaşa və açıq danışdım. Mən bizim mövqeyimizi və şərtlərimizi – münaqişənin sülh yolu ilə həllinə nail olmaq istəyimizi izah etdim.

Mən həmçinin regiona beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi zərurətini xüsusi vurğuladım. Bu qoşunlara, həqiqətən, Azərbaycanın strateji və potensial qonşusu kimi ruslar da daxil edilməlidir. Buna baxmayaraq, Rusiyanın bu münaqişəni təkbaşına həll etmək arzusu bizim üçün nə düzgün, nə də məqbul hesab olunur.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin (ATƏM) Minsk Qrupunun sədri Jan Eliassonla görüşümdə biz – hər ikimiz bu münaqişənin həlli prosesinin ATƏM və Birləşmiş Millətlər Təşkilatı (BMT) çərçivəsində baş verməsinin vacibliyini razılaşdıq. Mənim təəssüratım budur ki, bu mövqe Prezident Klinton daxil olmaqla görüşdüyüm liderlərin əksəriyyəti tərəfindən dəstəkləndi və qəbul edildi.

Dünən məhz Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 49-cu sessiyasında çıxış edərkən mən Azərbaycan Respublikasının daxili və xarici siyasətinin prioritetlərini xüsusi qeyd etdim və dünya birliyinə çatdırdım. Buna görə də, şübhəsiz, münaqişənin uğurlu həllinin çox çətin olduğu dünya səhnəsində Azərbaycanın statusunu və perspektivini indi daha çox başa düşənlər var.

***Betti Bleyer:*** *– Siz, şəxsən, xüsusilə uzun müddət birbaşa məşğul olduğunuza görə neft müqaviləsinin imzalanmasından çox məmnun olmalısınız. Demək olar ki, bir neçə həftə əvvəl danışıqlar aparan şəxs kimi Hyustondan qayıtdıqdan sonra belə tez neft müqaviləsinin imzalanması sizin adınızla bağlıdır. Buna baxmayaraq, müqavilənin reallaşmasından əvvəl həll olunmalı problemlər hələ də var. Xüsusilə boru kəməri marşrutu, Xəzərin statusu ilə bağlı problemlər və bu müqavilənin yerinə yetirilməsinə mane olmaq istəyən şəxslər və xalqlar var.*

***Heydər Əliyev:*** – Bizim indi əlimizdə olan müqaviləyə, nəhayət, nail olmaq üçün çətin yol keçilib. Hər iki, həm daxili, həm də xarici amillər maneə törətdiyinə görə danışıqlar üç il davam edib. Səhvlər edilmişdir. Azərbaycanın milli maraqlarının mütəmadi nəzərə alınmadığı, təmin edilmədiyi vaxtlar var idi. Məhz ona görə mən Prezident Fərmanı imzalayaraq danışıqların ikinci mərhələsinə şəxsən nəzarət etməyi düşündüm. Biz tələb etdik və mən güman edirəm ki, biz bütün tərəflər üçün qarşılıqlı xeyirli olan bir müqavilə imzalamışıq. Nəhayət, bu son dərəcə vacib və tarixi əhəmiyyətə malik olan müqavilənin uğuru – Azərbaycanın milli maraqları ilə birbaşa bağlı olmasındadır.

Mən məmnunluqla deyə bilərəm ki, bu tarixi əhəmiyyəti olan bu müqavilənin imzalanmasında bütün maneələrə və çətinliklərə, nəhayət, qalib gəlmişik; bununla yanaşı, sizin qeyd etdiyiniz kimi, müqavilənin imzalanmasından sonra müxtəlif cür çətinliklər meydana çıxmışdır. Onların arasında əsas Xəzərin statusunun "tanınmama"sına görə Rusiya hökuməti tərəfindən irəli sürülən qəbuledilməz şərtlər və verilmiş bəyanatlardır. Onların müqaviməti yalnız mətbuatda yayılan ümumi məlumatlardır. Amma sizə deyə bilərəm ki, mən hesab etmirəm ki, bu bəyanatlar ciddi problem yaradacaq.

Birincisi, müqavilədə Rusiyanın neft şirkəti "LUKOYL"un (milyardlarla dollarlıq müqavilənin) artıq 10 faiz gəlir payı var. İkincisi, biz 1993-cü ilin oktyabrında Azərbaycanla Rusiya arasında Xəzərin Azərbaycan sektorunda neft hasilatını tənzimləyən müqavilə imzaladıq. Həmçinin Rusiyanın Energetika Nazirliyinin nümayəndəsi cənab Stanislav Puqaç Rusiya Hökuməti adından (20 sentyabrda müqaviləni imzalayan digər tərəflərlə birlikdə) bu müqaviləni imzalayıb. Üçüncüsü, bu müqavilənin imzalanması müddətində, yaxud sonra Rusiya hökuməti tərəfindən Azərbaycan hökumətinə heç vaxt rəsmi bəyanat daxil olmayıb. Misal üçün, mən Prezident Klintona bildirdim və o bütün neft şirkətlərinin nümayəndələrini cəlb etdi, mən bu söylənilən məlumatlarda və iddialarda əsaslı heç nə görmürəm. Biz bu qəzet məlumatlarına fikir verməyərək müqavilənin həyata keçirilməsi prosesini davam etdirəcəyik.

Müqavilənin bir şərti tələb edir ki, müqavilənin imzalanmasından sonra, 54 aydan gec olmayaraq boru kəməri Azərbaycandan nefti nəql etmək üçün hazır vəziyyətdə olmalıdır. Bu başqa bir çətinlikdir. Müxtəlif qüvvələr cürbəcür marşrutların yaradılmasına təzyiq göstərirlər. Bizi narahat edən isə marşrutun təhlükəsizliyi, siyasi sabitlik və iqtisadi səmərəlilikdir. Mən deyərdim ki, Türkiyə bu danışıqların hər ikisində ən yaxşı seçim olacaq.

Mənim qeyd etdiyim kimi, bizim işimiz hələ qurtarmır. Bu yolda bizi çətinliklər və problemlər gözləyir; buna baxmayaraq, biz bu müqavilənin həyata keçirilməsini təmin etmək üçün bütün qüvvələrimizi əvvəlcədən səfərbər etməyə və gələcəkdə istənilən problemin öhdəsindən gəlməyə hazırıq.

***Betti Bleyer:*** *– Dünyada iki çox güclü dövlət var idi, siz də əsas liderlərdən biri idiniz və buna görə də sizin geniş siyasi təcrübəniz var. Siz indicə dünyada yeganə güclü dövləti idarə edən və kifayət qədər gənc lider olan Prezident Klintonla şəxsən görüşmüsünüz. Sizin Bill Klintonla bağlı şəxsi təəssüratınız necədir və onun Azərbaycanla bağlı problemlərə yanaşmasına dair sizin fikriniz nədir?*

***Heydər Əliyev:*** – Düzdür, siz bilirsiniz ki, siyasətə və rəhbərliyə gələndə yaşın necə olması vacib deyil. Bu, doğrudur ki, mən uzun müddət siyasətdə olmuşam və dünyanın güclü bir dövlətinin (SSRİ-ni nəzərdə tutur – S.A.) əsas rəhbərliyinin üzvü kimi daxildən və xaricdən bütün bunları görmüşəm. Hər halda, Bill Klinton Amerika Birləşmiş Ştatlarında seçilmiş prezidentdir və onun seçilməsindən sonra mən ona çox böyük hörmətlə yanaşmışam.

Mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyəndə kömək üçün ona etdiyim xahişimə cavabını heç vaxt unutmaram. O, prezident seçiləndə mən ona təbrik məktubu göndərdim və Ermənistanın törətdiyi blokadaya görə Naxçıvan Muxtar Respublikasında yaranmış çətin vəziyyəti ona izah etdim. Dərhal, o, bir yük təyyarəsi yardım təşkil etdi və bizə göndərdi.

Mən Bill Klintonu yüksək təcrübəli bir siyasətçi hesab edirəm. O, çox ağıllıdır. O, xeyirxah şəxsdir və digər xalqların problemlərinə görə narahat olur. Məhz buna görə də mənim, həqiqətən, ona böyük hörmətim var.

Mən Prezident Klintonu Azərbaycanın problemlərini həll etməkdə bizə çox böyük kömək etməyi bacaran dost və tərəfdaş kimi görürəm. Bütövlükdə, mən deyərdim ki, bizim görüşümüz çox səmimi və səmərəli keçdi. Biz bir-birimizi çox aydın başa düşdük. Və o mənim verdiyim məlumatlara böyük maraq göstərdi. Mənə elə gəldi ki, o bizim gələcəyimizlə bağlı problemlərin həlli üçün irəli sürdüyüm təklif və tövsiyələrimi qəbul etdi.

***Betti Bleyer:*** *– Bizimlə görüşmək üçün burada, Nyu-Yorkda çox sıx iş qrafikinizdən vaxt ayırdığınıza görə sizə təşəkkür edirəm. Jurnalımızın kollektivi son dərəcə gərgin əməyin və fədakarlığın nəticəsində regionda sülhü və inkişafı təmin etmək üçün həyata keçirilən bu planların yaxın günlərdə müvəffəqiyyət qazanması üçün sizə və Azərbaycan xalqına ruh yüksəkliyi və uğur arzulayır.*

***Heydər Əliyev:*** – Azərbaycana olan səmimi marağınıza görə sizə və jurnalınıza, "Azerbaijan International"ə təşəkkür edirəm. Bu, ilk dəfədir ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycan haqqında belə yüksəkkeyfiyyətli jurnal nəşr edilir. Bizim tariximizdə bundan əvvəl heç vaxt Azərbaycana həsr edilmiş "Azerbaijan International" kimi belə gözəl jurnal olmayıb. Və bu sizin və sizin kollektivinizin xoş niyyətlə yaratdığınız bir jurnaldır və buna görə mən sizə təşəkkür edirəm.

Biz harada yaşamasından asılı olmayaraq, bizə kömək edən azərbaycanlılara və sizin kimi Azərbaycanı sevən digər xalqın nümayəndələrinə ehtiyac duyuruq. Avropada və Amerikada sizin kimi bizə kömək edən kifayət qədər insan yoxdur. Biz indi çox güclü diaspora malik olan və öz məqsədləri üçün çoxlu məqalələr, qəzet və jurnallar nəşr etdirən Ermənistanla müharibə vəziyyətindəyik.

Azərbaycana kömək edən azdır. Buna görə də Azərbaycana böyük sevgisi olan sizin və sizin kollektivinizdəki kimi insanlar təkcə bizim ölkə üçün deyil, həmçinin regionda sülh və ədalət naminə yaxşı iş görürlər. Mən sizin səylərinizi çox yüksək qiymətləndirirəm.

***İngilis dilindən tərcümə etdi:***
**Süsənbər AĞAMALIYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## Prezident İlham ƏLİYEV:

***"Bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"***



# Bizim Bayrağımız bax, burada dalğalanır – Xankəndidə

Xankəndi... Bu şəhər Qarabağın al mirvarisi, Qarabağ xanlarının yadigarı, tarixin ən gözəl günlərinin yaşandığı əziz bir torpaqdan başqa xalqımızın neçə illik həsrəti idi həm də. Vaxtilə Qarabağ xanlarının taxtı qurulan bu torpaq illərlə xain əllərlə düşmənə pay verilməyə çalışılsa da, buna nail ola bilməyiblər. Hətta sovetlər dönəmində buraya köçürülən erməni ailələrinin sayını artırmaqla azərbaycanlıların sayını azatmağa və bununla da Xankəndini ermənilərə hədiyyə etməyə cəhd göstəriblər. Lakin xalqımızın xilaskarı olan dahi rəhbəri hər addımbaşı buna mane olmuşdur. Sovet hakimiyyəti dövründə Ulu Öndərin göstərişi ilə dəmir yolu Xankəndiyə qədər çəkilmiş, şəhərdə müasir dəmiryol stansiyası inşa edilmişdi.

Bir çox müəssisələrin inşası da Heydər Əliyevin birinci hakimiyyəti dövründə həyata keçirilmiş, on minlərlə yerli sakin yüksək əməkhaqqı, mənzil və digər sosial dəstəklə təmin edilmişdi. İqtisadi sahədəki inkişaf humanitar sahəyə də öz təsirini göstərmişdi. Şəhərdə sovxoz-texnikum, tibb və musiqi məktəbləri fəaliyyət göstərmişdir. 1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi filialı açılmışdır. 1973-cü ildə filial o dövr Azərbaycan rəhbəri Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə müstəqil pedaqoji instituta çevrilmişdir. Uzaqgörən siyasət nəticəsində Xankəndidə azərbaycanlı ailələrin sayı artırılmış, gənclərin işlə təmin olunması onların köçüb getməsinin qarşısını almışdır. Lakin dahi rəhbərin sovet hakimiyyəti idarəçiliyindən uzaqlaşdırılması, Azərbaycanın yeni müstəqillik qazandığı illərdəki daxili çəkişmələr Qarabağın itirilməsi ilə nəticələnmişdi.

Əvvəlki illərdə təəssüf hissi ilə "Bu gün Qarabağın mirvarisi Xankəndi şəhəri işğal altındadır. Ermənistan işğalına qədər orada yaşayan 17 minə qədər azərbaycanlı sakin şəhərdə erməni separatizmi ilə bacardıqları qədər mübarizə aparmışlar. Bu çətin mübarizə bir çox hallarda çoxsaylı itkilərlə müşayiət olunurdu. Erməni millətçilərinin əvvəldən ciddi hazırlığı və Moskva tərəfindən hərtərəfli dəstəyi şəhərin Ermənistanın nəzarəti altına keçməsinə səbəb oldu. Axırıncı azərbaycanlılar 1991-ci ilin dekabrında tərk etməli oldular Xankəndini. Bu gün xankəndililər respublikamızın bütün bölgələrində qaçqın həyatı yaşayırlar" yazırdıq və ya yazmaq məcburiyyətində qalırdıq. Amma hər birimiz yaxşı bilirdik ki, Vətənimizin ərazi bütövlüyü uğrunda əzmi qırılmazdır. Qarabağın və digər işğal edilmiş ərazimizin işğaldan azad olacağı gün isə heç də uzaqda deyildi. Bunu bizdən xalqımızın dəyərli tarixi və onun görkəmli oğullarının ruhu tələb edirdi. Bu olmalı idi və olacaqdı. Çünki Azərbaycan Ordusu gündən-günə güclənir xalqın səbir kasası artıq daşırdı. Və həmin gün gələndə illərdir, gözləri yolda qalan insanların sevinci bir damla yaşa dönüb yanağına süzüldü. Müzəffər Ordumuzun qarşısında tab gətirməyən erməni quldurlarının "arzusu" yerinə yetirildi. Onlar Bakıya çay içməyə gətirildi. Azərbaycan Bayrağı isə Xankəndinin mərkəzində Müzəffər Ali Baş Komandanın əllərində göylərə yüksəldi.

Ali Baş Komandanın dediyi ***"Bax, burada oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam, görəsən, bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara"*** bu sözlər isə düşmən tabutuna vurulan son mismar oldu.

Ölkə başçısının 2024-cü il 18 sentyabr tarixli Sərəncamı ilə 20 sentyabr Xankəndi şəhəri günü kimi qeyd olunacaq.

Bu gün Xankəndi əvvəlki xoşbəxt günlərinə qayıdır. Qarabağ Universitetinin qapıları gənclərin üzünə açılır. Qarabağı azad etmək üçün təhsilini yarımçıq qoyub döyüşlərə qatılan, şəhidlik zirvəsinə ucalan igidlərin yarım qalan arzularını davam etdirən gənclərin. Azad, bütöv Azərbaycanın xoşbəxt gənclərinin.



## O artıq Qələbə şəhəridir

*Nə az, nə çox, düz 30 il faciə şəhəri olaraq anıldı o. Düşmənin qanlı caynağında qanına bələnən şəhər. Xocalı deyəndə canımıza üşütmə düşdü, qaranlıq meşələr, buz kəsmiş yollarda ayaqları donan insanlar gəldi ağlımıza. Adı çəkiləndə bir "ah" keçdi ürəyimizdən.*

İllər sonra Vətənin bütövlüyü uğrunda gedən mübarizədə işğaldan azad edilən hər qarış torpaq şəhid qanı ilə yoğrulub Vətən olanda, hər kənd, hər şəhər azad edildikcə bu xalqın sevinci sonsuzlaşdı. Şəhid məzarı başında dayanan ana "Şuşa azaddır!" kəlməsini eşidib qürurla dayandı məzar başında. Günlərlə oğul yolu gözləyən ata Murovda qəhrəmanlıq göstərib şəhidlik zirvəsinə ucalan oğlunun tabutu önündə qurban kəsdi. Şəhid məzarlarını bəzəyən xarıbülbülü görən gəlinlər yarımçıq qalan sevgilərini Vətənə qurban verdilər.

Xocalı azad olanda isə yaşadığımız hisslər bu dünyaya sığmadı. Çünki Xocalı deyəndə soyuq qış gecəsi övladı qucağında meşələrdə buz heykələ dönən analar, hər övladını bir təpədə itirən atalar, namusu tapdalanmasın deyə özünə qəsd edən qız-gəlinimiz, ana bətnindən çıxarılıb süngüyə keçirilən körpələr, "Xocalıdan beşyaşlı qız" yazılan naməlum məzarlar gəlirdi gözümüzün önünə. Bu həmin Xocalı idi. Bir gecə, soyuq bir qış gecəsində qarlı yollarda faciə olan Xocalı. Tarixin ən dəhşətli şəhəri. Həmin gün adı dəyişmişdi bu yazıq şəhərin. Həmin gecə illərlə ocağımızdan od, təknəmizdən çörək verdiyimiz qonşularımızın əsl sifətini bir daha görmüşdük biz.

30 qış gəldi keçdi, amma unudulmadı heç nə. Xocalı deyəndə Azərbaycanın gözəl guşəsi yox, faciə düşdü yadımıza. Həsrətlə gözlədik Xocalıda analarımızın başından açılıb tapdalanan yaylığın ayaqlar altından götürülməsini. Vətən savaşı başlayanda gözü yollara dikilənlər içində onlar da var idi. Həmin gün evindən zorla çıxarılan Xocalı sakinləri. Müzəffər Sərkərdənin "dəmir yumruğ"u düşmənin başında şimşək kimi çaxanda hamı əmin idi ki, Xocalı da qayıdacaq.

2023-cü ilin 19 sentyabrında Azərbaycan əsgəri tarixin səhifəsinə "Xocalı azaddır!" sözünü yazdı.

Həmin gün hər kəsin qəlbində 30 ildir, qanayan yaranın ağrısı azalmasa da, bir anlıq sakitləşdi. İgid oğulların qarşısında cəmi 23 saat tab gətirən quldurlar ağ bayraq qaldırıb təslim oldular.

Bir neçə gün sonra Xocalıya səfər edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldanda qanlı gecədə vəhşicəsinə öldürülən şəhidlərin ruhu şad oldu. Qarlı aşırımda əyilən qəddi düzəldi Azərbaycan qadınının. Xocalı azadlığa qovuşanda əsir qalan məzarlar da, ruhlar da azad oldu.

Həmin gündən cəmi bir il keçir. Düşmənin xarabaya çevirdiyi Xocalı öz sahibinin əlində cənnətə dönür. Qarlı, qanlı gecədə evindən, ocağından ayaqyalın çıxan insanlar Azərbaycan əsgərinin ayaq izləri ilə geri qayıdır artıq.

Bundan sonra hər il xocalılılar öz ocağında 20 sentyabrda Xocalı şəhəri gününü qeyd edəcəklər.

✍ **Ramiyə ƏKBƏROVA**

## Səlahiyyətli nümayəndə sahibkarlarla görüşüb



Sentyabrın 16-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüş keçirib.

Səlahiyyətli nümayəndə sahibkarlarla 2023-cü il 9 fevral tarixli görüşü xatırladaraq qeyd edib ki, məhz həmin görüşdə səsləndirilən təkliflər əsasında "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" hazırlanıb. Dövlət Proqramında logistikanın subsidiyalaşdırılması da Naxçıvanda həyata keçiriləcək iqtisadi islahatların tərkib hissəsi kimi nəzərdə tutulub. Bu istiqamətdə ötən dövrdə Azərbaycanda fəaliyyət göstərən beynəlxalq konsaltinq şirkəti ilə müəyyən məsləhətləşmələr aparılıb.

Naxçıvanda gələcəkdə rəqabətədavamlı və ixracyönümlü məhsul istehsalı üçün xüsusi gömrük, vergi güzəştlərinin tətbiq olunacağını diqqətə çatdıran Fuad Nəcəfli istehsal prosesində innovativ texnologiyalardan istifadənin, kadr potensialının gücləndirilməsinin, sənədləşmənin qanunvericiliyə uyğun aparılmasının, tenderlərdə fəal iştirakın vacibliyini vurğulayıb. Bildirilib ki, digər sahələr kimi sahibkarlıqda da kadr hazırlığı mühüm məsələdir. Kadrların formalaşdırılması, inkişafı üçün yeni yaradılan "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin imkanlarından istifadə olunmalıdır.

Görüşdə Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov sahibkarların kredit, ixracidxal imkanları, Naxçıvan Baş Gömrük İdarəsinin rəisi Vüqar Əliyev qanunvericiliyə uyğun gömrük prosedurları barədə məlumat veriblər.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb, irəli sürülən təkliflər üzrə müzakirələr aparılıb.



## "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2018-ci il 19 iyul tarixli 131-V FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2018-ci il 19 iyul tarixli 131-V FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə "52" rəqəmləri "54" rəqəmləri ilə, "24" rəqəmləri "26" rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə" üzrə:

1.2.1. 5.4-cü bəndin birinci cümləsində "bir" sözü "iki" sözü ilə, ikinci cümləsində "müavinini" sözü "müavinlərini" sözü ilə əvəz edilsin;

1.2.2. 5.5-ci bənddə "müavini" sözü "müavinləri" sözü ilə, "ona" sözü "onlara" sözü ilə, "daşıyır" sözü "daşıyırlar" sözü ilə əvəz edilsin;

1.2.3. 5.6.2-ci yarımbənddə "müavinin" sözü "müavinlərinin" sözü ilə əvəz edilsin;

1.2.4. 5.8-ci bənddə "müavininə" sözü "müavinlərindən birinə" sözləri ilə əvəz edilsin;

1.2.5. 5.9-cu bənddə "müavinindən" sözü "müavinlərindən" sözü ilə əvəz edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 18 sentyabr 2024-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 sentyabr 2024-cü il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin QƏRARI

20 sentyabr 2024-cü il Naxçıvan şəhəri

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi – Səadət Bəktaşi (sədr), Əsgər Novruzov, Əli Allahverdiyev (məruzəçi-hakim), Yusifəli Qurbanov, İlqar Mirzəyev, Müşfiq Həsənov, Fərman Abbasov, Vera Kuimova, Vüqar Quliyev, Sənan Qarayev və Səxavət Novruzovdan ibarət tərkibdə,

məhkəmə iclas katibi Vüsal Muradovun,

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əkrəm Hüseynzadə, sədr müavini Xatirə İbrahimli, üzvləri Şamxal Məmmədov və Şəhla Şirəliyevanın,

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mütəxəssisləri Həbib Rzayev, Rəhim Əsgərov, Nuraləm Qasımov, İsmayıl İsmayılovun iştirakları ilə,

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə uyğun olaraq konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2024-cü il sentyabrın 1-də keçirilmiş seçkilərin nəticələrinin yoxlanılmasına dair işə baxaraq hakim Əli Allahverdiyevin məruzəsini, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əkrəm Hüseynzadənin çıxışını və Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin mütəxəssisləri tərəfindən təqdim olunan rəyi dinləyib müzakirə edərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi

**MÜƏYYƏN ETDİ:**

"Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli 176 nömrəli Sərəncamına, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 1-ci bəndinə əsasən "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 28 iyun 2024-cü il tarixli Sərəncamı ilə 1 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər təyin edilmiş və həmin gün seçkilər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə görə, seçkilərin nəticələrinin düzgünlüyü qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən yoxlanılır və təsdiq edilir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.2-ci maddəsinə əsasən Mərkəzi Seçki Komissiyası səsvermə günündən ən geci 10 gün keçənədək dairə seçki komissiyalarının protokollarını (bu Qanuna uyğun olaraq onlara əlavə edilən sənədlərlə birlikdə) yoxlayıb, seçkilərin yekunlarının müəyyənləşdirilməsinə dair öz qərarını və Mərkəzi Seçki Komissiyasının protokolunu Ali Məhkəməyə təqdim edir.

Həmin Qanunun 93.3-cü maddəsinə əsasən Ali Məhkəmə göstərilən sənədləri aldıqdan sonra 10 gün müddətində müvafiq mütəxəssisləri cəlb etməklə həmin sənədlərin bu Qanuna uyğunluğunu yoxlayır.

Qanunvericiliyin yuxarıda göstərilən tələblərinə müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası 2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərin yekunlarının yoxlanılması və təsdiq edilməsi məsələsinə baxılması üçün səsvermənin ümumi yekunları haqqında 10 sentyabr 2024-cü il tarixli qərarı və protokolu, dairə seçki komissiyalarının protokollarını onlara əlavə edilmiş sənədlərlə birlikdə 11 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə təqdim etmişdir.

2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərin ümumi yekunlarına dair Mərkəzi Seçki Komissiyasının protokoluna əsasən:

1. Seçki siyahılarına daxil edilmiş seçicilərin ümumi sayı – 288358 (iki yüz səksən səkkiz min üç yüz əlli səkkiz) ;

2. Səsvermədə iştirak edən seçicilərin sayı – 111834 (bir yüz on bir min səkkiz yüz otuz dörd) ;

3. Dairə seçki komissiyalarının sayı – 45 (qırx beş);

4. Dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı – 45 (qırx beş);

5. Mərkəzi Seçki Komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş dairə seçki komissiyaları protokollarının sayı – 45 (qırx beş);

6. Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki dairələrinin sayı – 0 (sıfır);

7. Səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı – 0 (sıfır);

8. Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı – 0 (sıfır) olmuşdur.

Mərkəzi Seçki Komissiyasının səsvermənin ümumi yekunlarına dair 2024-cü il 10 sentyabr tarixli protokoluna əsasən 45 seçki dairəsi üzrə səsvermənin nəticələri etibarlı hesab edilmiş və həmin seçki dairələri üzrə deputat seçilmiş namizədlər müəyyən olunmuşdur.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.11-ci maddəsinə əsasən protokollar seçki komissiyasının üzvləri tərəfindən tərtib edilir və seçki komissiyasının üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır.

Həmin Qanunun 23.3-cü maddəsinə görə Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 2/3 səs çoxluğu ilə qəbul edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə təqdim edilmiş səsvermənin ümumi yekunlarına dair Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 sentyabr tarixli protokolundan göründüyü kimi, bu sənədi Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvlərindən 5-i imzalamışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.3-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim edilmiş sənədlərin həmin Qanuna uyğunluğunun yoxlanılması üçün mütəxəssislər cəlb edilmiş, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyindən və Naxçıvan Muxtar Respublikası Prokurorluğundan seçki hüquqlarının müdafiəsi və seçki qanunvericiliyinin pozulması ilə əlaqədar baxılmış şikayət və ərizələr haqqında məlumatlar tələb edilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mütəxəssisləri Həbib Rzayev, Rəhim Əsgərov, Nuraləm Qasımov, İsmayıl İsmayılovun rəyinə əsasən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının yekun protokoluna əlavə edilmiş 45 dairə seçki komissiyasının protokolları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.2-ci və 90.3-cü maddələrinin tələblərinə tam cavab verir. Həmin protokollar Qanunun 90.2-ci maddəsinə müvafiq olaraq məntəqə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında tərtib edilmişdir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının yekun protokolu "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 91.2-ci maddəsinin tələblərinə uyğun tərtib edilmişdir.

Dairə seçki komissiyaları protokolların, Mərkəzi Seçki Komissiyası isə yekun protokolun hesablanmasını düzgün aparmışlar. Həmin sənədlərdə nöqsanlar, səhvlər, yolverilməz düzəlişlər və uyğunsuzluqlar aşkar edilməmişdir.

Mütəxəssislərin rəyinə əsasən 2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərə dair Mərkəzi Seçki Komissiyasına tərəfindən təqdim olunmuş 45 dairə seçki komissiyasının protokolları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.2, 87.11, 90.2, 90.3 və 91.2-ci maddələrinin tələblərinə tam uyğun tərtib edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 12 sentyabr 2024-cü il tarixli 3-4-090/2-007402/2024 saylı və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 12 sentyabr 2024-cü il tarixli 3-13-43/2-13702/2024 saylı məktublarından aydın olur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə 2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərlə bağlı seçki hüquqlarının müdafiəsi və seçki qanunvericiliyinin pozulması ilə əlaqədar hər hansı müraciət daxil olmamışdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin icraatına seçki hüquqlarının müdafiəsi və seçki qanunvericiliyinin pozulması ilə əlaqədar hər hansı müraciət və ya şikayət daxil olmamışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi belə nəticəyə gəlir ki, 2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərin ümumi yekunlarına dair Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 sentyabr tarixli protokolu və ona əlavə

Ardı 5-ci səhifədə

edilmiş sənədlər “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 87.2, 87.11, 90.2, 90.3 və 91.2-ci maddələrinin tələblərinə uyğun hesab edilməli və seçkilərin nəticələri təsdiq edilməlidir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsini və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci və 93.4-cü maddələrini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi

**QƏRARA ALDI:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinə dair Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 sentyabr tarixli protokolu və ona əlavə edilmiş sənədlər “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 87.2, 87.11, 90.2, 90.3 və 91.2-ci maddələrinin tələblərinə uyğun hesab edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 2024-cü il sentyabrın 1-də keçirilmiş

1 saylı Sədərək,
2 saylı Dəmirçi,
3 saylı Maxta,
4 saylı Yengicə,
5 saylı Çomaxtur,
6 saylı Çərçiboğan,
7 saylı Xanlıqlar,
8 saylı Düdəngə,
9 saylı Mahmudkənd,
10 saylı Şərur şəhər,
11 saylı Aşağı Yaycı,
12 saylı İbadulla,
13 saylı Püsyan,
14 saylı Qarabağlar,
15 saylı Qıvraq,
16 saylı Xok,
17 saylı Nehrəm,
18 saylı Nehrəm,
19 saylı Babək şəhər,
20 saylı Zeynəddin,
21 saylı Sirab,
22 saylı Şıxmahmud,
23 saylı Cəhri,
24 saylı Naxçıvan şəhər,
25 saylı Naxçıvan şəhər,
26 saylı Naxçıvan şəhər,
27 saylı Naxçıvan şəhər,
28 saylı Naxçıvan şəhər,
29 saylı Naxçıvan şəhər,
30 saylı Naxçıvan şəhər,
31 saylı Naxçıvan şəhər,
32 saylı Naxçıvan şəhər,
33 saylı Naxçıvan şəhər,
34 saylı Şahbuz şəhər,
35 saylı Kolanı,
36 saylı Badamlı qəsəbə,
37 saylı Culfa şəhər,
38 saylı Yaycı,
39 saylı Bənəniyar,
40 saylı Saltaq,
41 saylı Ordubad şəhər,
42 saylı Aşağı Əndəmic,
43 saylı Vənənd,
44 saylı Dəstə,
45 saylı Sabirkənd – seçki dairələri üzrə seçkilərin nəticələri bütövlükdə təsdiq edilsin.

3. Qərar elan olunduğu andan qüvvəyə minir.

4. Qərar “Şərq qapısı” qəzetində dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr** **Səadət Bəktaşi**
**Hakimlər** **Əsgər Novruzov**
**Əli Allahverdiyev**
**Yusifəli Qurbanov**
**İlqar Mirzəyev**
**Müşfiq Həsənov**
**Fərman Abbasov**
**Vera Kuimova**
**Vüqar Quliyev**
**Sənan Qarayev**
**Səxavət Novruzov**

## Naxçıvanda “Səyyar Gənclər Xidməti” layihəsinə start verilib



Sentyabrın 19-da Şərur rayonunun Oğlanqala kəndində “Səyyar Gənclər Xidməti” layihəsinin açılış tədbiri keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli tədbir iştirakçılarına səlahiyyətli nümayəndə Fuad Nəcəflinin salam və xoş arzularını çatdırıb, “Səyyar Gənclər Xidməti” layihəsinin fəaliyyətinə uğurlar arzulayıb.

Samir Seyidəhmədli cari ilin fevral ayında Gənclər Fondunun Naxçıvan filialının yaradılmasını həyata keçirilən gənclər siyasəti istiqamətində atılan mühüm addımlardan biri kimi qiymətləndirib. Bildirib ki, bu həm də Naxçıvanda yaşayan gənclərin Gənclər Fondu tərəfindən həyata keçirilən layihələrdə daha fəal iştirak etməsinə imkan verir. Səlahiyyətli nümayəndəlik institutu yaradıldıqdan sonra muxtar respublikada gənclərlə işin aparılması, onların karyera planlaması və işlə təmin olunması istiqamətində böyük addımlar atılıb. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da gənclərin intellektual və yaradıcı potensialının artırılması üçün müddəalar nəzərdə tutulub. Son 2 ildə keçirilmiş 3 əmək yarmarkası və gənclərin müxtəlif sahələr üzrə işlə təmin olunması bu istiqamətdə görülən işlərin bariz nümunəsidir.




Səlahiyyətli nümayəndənin müavini Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Dövlət Suverenliyi Gününün təsis olunduğunu diqqətə çatdırıb, gəncləri bu münasibətlə təbrik edib.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov qədim Naxçıvan torpağında “Səyyar Gənclər Xidməti”nin layihəsini təşkil etməkdən məmnunluğunu ifadə edib və layihə barədə məlumat verib. Bildirib ki, layihənin başlıca məqsədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən dövlət gənclər siyasətinin gənclər üçün yaratdığı imkan və xidmətlərin, o cümlədən məşğulluq, sahibkarlıq, təhsil, innovasiyalar, kənd təsərrüfatı və digər sahələrdə həyata keçirilən proqramların kəndlərdə yaşayan gənclər üçün əlçatanlığının daha da artırılmasıdır. Layihənin başlıca amalı gənclərin dövlətçilik və vətənpərvərlik ruhunda yetişməsi, ucqar kəndlərdə yaşayan gənclərin sosiallaşması, asudə vaxtlarının səmərəli təşkili, onların bilik və bacarıqlarının, həmçinin dünyagörüşünün genişləndirilməsidir.

Tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Hüseyn Səfərov və qazi Ceyhun Davudov çıxış edib, layihənin əhəmiyyətini vurğulayıblar.

Tədbir Şərur rayon gənclərinin ifasında konsert proqramı ilə davam edib.

Sonra Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli “Səyyar Gənclər Xidməti” layihəsi ilə tanış olub.

Məlumat verilib ki, “İmkanlar Sənə Doğru!” devizi ilə ucqar kəndlərdə yaşayan gənclərə fürsətlər qazandırmaq üçün yola çıxan “Səyyar Gənclər Xidməti” 19-25 sentyabr tarixlərdə muxtar respublikanın bütün rayonlarında yüzlərlə gənci əhatə edəcək. Azərbaycan Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə keçirilən layihə çərçivəsində gənclərin sosial aktivliyinin artırılması, gənclər siyasəti sahəsində maarifləndirmə, dövlətçilik ənənələrinin təşviq edilməsi, onların bilik, bacarıq və dünyagörüşünün genişləndirilməsinə yönəlmiş tədbirlər, fərdi inkişaf və müxtəlif mövzularda təlimlər, intellektual və həvəskar idman yarışları keçiriləcək.

## “Tibbi Laborator Diaqnostika – Müasir yanaşmalar, perspektivlər, tendensiyalar” adlı konfrans keçirilib




*Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidən qurulan laboratoriyasının təqdimatı məqsədilə “Tibbi Laborator Diaqnostika – Müasir yanaşmalar, perspektivlər, tendensiyalar” adlı konfrans keçirilib. Tədbir laborator xidmətlərdəki son texnologiyalar, yeniliklər və bu xidmətlərin xəstəliklərin idarə olunmasındakı rolu barədə müzakirələri əhatə edib.*

Konfrans Ümummilli Lider Heydər Əliyev, Mustafa Kamal Atatürk və hər iki ölkənin şəhidlərinin xatirəsinə sükutla başlanıb, Dövlət himnləri səsləndirilib. Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Sadıxov konfransda çıxış edərək səhiyyə sahəsində aparılan islahatlar və əldə olunan nailiyyətlər barədə ətraflı danışıb. Nazir bildirib ki, səhiyyə müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, müasir avadanlıqların gətirilməsi və kadr potensialının artırılması istiqamətində atılan addımlar əhalinin sağlamlığının qorunmasına mühüm töhfə verir.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva konfransda çıxış edərək son dövrlərdə muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının əhəmiyyətini vurğulayıb. O, qısa müddət ərzində Naxçıvanın səhiyyə sistemində böyük dəyişikliklərin baş verdiyini və bu islahatların əhaliyə daha keyfiyyətli tibbi xidmət göstərilməsinə imkan yaratdığını qeyd edib. Tükəzban Quliyeva, həmçinin Naxçıvan Muxtar Respublikasında yaradılan bu şəraitin ölkə rəhbərliyinin səhiyyə sahəsinə göstərdiyi diqqət və dəstək nəticəsində mümkün olduğunu bildirib və bu istiqamətdə səylərinə görə səhiyyə nazirinə təşəkkür edib.

Sonra Türkiyədən gəlmiş professor və həkim heyəti müasir laborator diaqnostika və tibb sahəsində təqdimatlar ediblər.

## Suverenlik tarixinin Zəfər töhfəsi – Qarabağ Universitetindən salam olsun!




Həyəcan, qürur, fəxarət. Qarabağa bir neçə dəfə jurnalist kimi səfər etmişəm. Ancaq bu gün buraya övladı Qarabağ Universitetinə qəbul olunmuş bir valideyn kimi qədəm basmışam. Qalib ölkənin vətəndaşı kimi qürur duyuram. Mübaliğəsiz deyim ki, bu doğma yurd yerində məni öz ağuşuna alan hissləri sözlə ifadə edə bilmirəm və burada olmağı həyatımın ən gözəl anları sayıram.

Bu sözləri Xankəndidə AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova söyləyib.

O deyib: “Bugünkü gəlişim yeni və fərqli duyğular yaşadır mənə. Övladım Ceyranı Qarabağ Universitetinə gətirmişəm. Sevincimin həddi-hüdudu yoxdur. Bu sevinc qızımın Qarabağda təhsil alacağı ilə məhdudlaşmır. Bu qədim yurd yerinə gəlişim bir neçə gözəl bayram gününə təsadüf edib. Azərbaycanın ən müasir tarixinin 20 sentyabrı. Möhtəşəm tarixi gün. Prezident İlham Əliyevin ötən gün imzaladığı Sərəncamla sentyabr ayının 20-si Azərbaycan Respublikasında “Dövlət Suverenliyi Günü” kimi təsis olundu. Yəni təqvimimizdə daha bir gözəl gün özünə yer aldı. Yeri gəlmişkən, onu da vurğulamaq istəyirəm ki, Azərbaycan xalqı 30 il düşmən işğalında qalan torpaqlarımızın geri alınması sevincini 4 il bundan əvvəl yaşadı. Daha sonra 2023-cü il sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü tam təmin edildi, torpaqlarımız separatçılardan təmizləndi. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə təsis edilən Dövlət Suverenliyi Gününün təməli də elə o vaxt qoyuldu”.

Bu gün Qarabağda Dövlət Suverenliyi Gününün xoş ovqatının hər addımda göründüyünü söyləyən Sara Əzimova bildirib ki, bu bayram hər il ölkəmizdə böyük təntənə ilə qeyd olunacaq: “Bu gün həm də Xankəndi şəhəri günüdür. İstər-istəməz Xankəndinin azad olunması, burada üçrəngli Azərbaycan Bayrağının ucaldılması xatırlayıram. Bu gün o bayraq Xankəndi səmasında qalib dövlətin rəmzi kimi xain qonşulara gözdağıdır, bizə isə fəxarət hissi bəxş edir. Belə möhtəşəm bayramlar günündə daha bir sevincimiz onunla bağlıdır ki, Prezident İlham Əliyev Qarabağ Universitetinin açılışını etdi. Açılış tədbirində dövlət başçısı müəllim və tələbə heyəti ilə görüşündə dedi: ***“İlk növbədə, sizi və bütün Azərbaycan xalqını Dövlət Suverenliyi Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu günü biz birlikdə Xankəndidə qeyd edirik və əminəm ki, 20 sentyabr bundan sonra Azərbaycanda geniş qeyd ediləcək”.***

Baş redaktor qeyd edib ki, Prezident Qarabağın tarixi ilə bağlı, bu yurd yerinin işğala qədərki dövründən və böyük Zəfərdən sonra görülən işlərdən də danışdı. Həyata keçirilən tədbirlər sırasında Qarabağ Universitetinin binasının inşasının əsl bayram təntənəsinə çevrildiyini dilə gətirərək dedi: ***“Bu gün, eyni zamanda Qarabağ Universitetinin açılışıdır. Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü. Demək olar ki, bina yenidən quruldu”.*** Dövlət başçısı universitetin müəllim və tələbə heyətini ürəkdən təbrik edərək tapşırıq və tövsiyələrini də verdi.

“Sevinirəm ki, qızım Ceyran Dadaşova Şərur rayon Dərəkənd kənd tam orta məktəbini fərqlənmə attestatı ilə bitirərək 498,5 balla Qarabağ Universitetinin Menecment ixtisasına qəbul olub. Bir də ona görə sevinirəm ki, Ceyran və onun kimi bu universiteti seçmiş digər tələbələr ali təhsillərini bu universitetdə alacaq, dövlətimiz və xalqımız üçün mütəxəssis kimi yetişəcəklər. Burada gördüklərim, müəllimlərlə, eləcə də övladları ilə birlikdə Xankəndidə olan valideynlərlə söhbətlərim məndə tam əminlik yaratdı ki, belə də olacaq. Dövlət başçısının Qarabağ Universitetinin ölkəmizin aparıcı ali təhsil müəssisələrindən birinə çevriləcəyi ilə bağlı arzusu da qısa vaxtda reallığa çevriləcək. Bir sözlə, “Böyük Qayıdış” əsasında elm, təhsil və mədəniyyət Xankəndidən dünyaya yayılacaq”, – deyə o əlavə edib.

**Sara ƏZİMOVA**
***“Şərq qapısı” qəzetinin baş redaktoru***
**AZƏRTAC**



# QARABAĞ AZƏRBAYCANDIR!

# Azərbaycanı bütövləşdirən zəfər

## Prezident İlham ƏLİYEV:

*“Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.”*





*Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən bir il ötür. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən və cəmi 23 saat çəkən bu hərbi əməliyyatla Azərbaycan ərazilərində 200 il idi, davam edən erməni separatçılığına birdəfəlik son qoyuldu. Qəhrəman ordumuzun möhtəşəm zəfəri ilə yekunlaşan bu əməliyyatla bütün torpaqlarımız üzərində dövlətimizin suverenliyi təmin edildi, Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq kimi sərsəm ideya həmişəlik tarixin zibilliyinə atıldı. Bununla da möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətçilik tariximizin növbəti şərəfli səhifəsi yazıldı.*

### *Azərbaycanın yaratdığı nümunə, yaxud Zəfər çələngli Lider*

Əslində, antiterror tədbirlərinə Vətən müharibəsində qazandığımız tarixi Zəfərin məntiqi davamı kimi də yanaşa bilərik. Dövlətimizin, xalqımızın qürur mənbəyinə çevrilən 44 günlük Vətən müharibəsində Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımız azad edildi, sözdən və sülhdən anlamayan düşmən döyüş meydanında ordumuz tərəfindən layiqli şəkildə cəzalandırıldı. Xalqımız bu müharibədə yumruq kimi bir oldu. Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qeyd etdiyi kimi, bu müharibə xalqımızın əyilməz ruhunu göstərdi. 44 gün ərzində dünya Azərbaycanı yenidən tanıdı, onun rəhbərinin yenilməzliyinə, siyasi müdrikliyinə şahidlik etdi.

Bu Zəfər Ulu Öndər Heydər Əliyev yolunun, Prezident cənab İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin təntənəsinə çevrildi. Bir daha bu tarixi gerçəklik öz təsdiqini tapdı ki, xalqımız Ulu Öndər Heydər Əliyevin ideyalarına söykənməklə, öz taleyini məhz cənab İlham Əliyevə etibar etməklə böyük müdriklik və uzaqgörənlik nümayiş etdirib. Eyni zamanda Vətən müharibəsindəki tarixi Zəfər onu göstərdi ki, Prezident cənab İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addım Azərbaycanın milli maraqlarının həyata keçirilməsini, dövlətçiliyimizin güclənməsini, ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılmasını təmin edib. Nəticə etibarilə, bu amillər torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanın uğurla yerinə yetirilməsinə xidmət etdi.

Vətən müharibəsində yalnız torpaqlarımızı azad etmədik, həm də bütün şəhidlərimizin, Ermənistanın hərbi cinayətlərinin, törətdiyi soyqırımlarının qurbanı olan bütün vətəndaşlarımızın qisasını aldıq, onların qanını yerdə qoymadıq. Tək müasir deyil, son bir neçə əsrlik tariximizin ən böyük hadisəsi olan bu zəfərlə möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ziddiyyətli beynəlxalq münasibətlər şəraitində dövlətin təkbaşına və güc yolu ilə öz hüquqlarını təmin etməyinin nümunəsini yaratdı.

Vətən müharibəsində Azərbaycan yalnız Ermənistanı məğlub etmədi. Biz bu savaşda düşmənin arxasında dayanan güclərə, siyasi mərkəzlərə, erməni təəssübkeşlərinə, ümumilikdə, dünya erməniliyinə qalib gəldik. Torpaqlarımızın 30 ilə yaxın işğal altında qalmasının da səbəbkarı məhz dünya erməniliyinin ünvanlarına çevrilmiş Qərb siyasi mərkəzləri idi. Hansı ki onların məqsədi Qarabağda ikinci erməni dövlətinin yaradılması və ya onun zamanla Ermənistana ilhaq edilməsi idi. Bu baxımdan biz həm də erməni təəssübkeşi olan siyasi mərkəzlərə qalib gəldik, onların saxta iddialarını, ATƏT-in Minsk qrupunu tarixin zibilliyinə göndərdik. Cənab İlham Əliyev dünya erməniliyinə qalib gəlməklə göstərdi ki, heç bir qüvvə Azərbaycanı öz yolundan döndərə bilməz.

### *Antiterror tədbirlərinə gedən yol*

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanat Azərbaycanın 44 günlük müharibədəki qələbəsinin, Ermənistanın isə məğlubiyyətinin siyasi-hüquqi təsdiqi oldu. Bu bəyanatla Ermənistan həm də üzərinə bir sıra öhdəliklər götürdü və onlardan biri də erməni silahlı qüvvələrinin Qarabağ ərazisindən tamamilə çıxarılması idi. Bu öhdəlik bəyanatın 4-cü bəndində öz əksini tapıb.

Üçtərəfli Bəyanat imzalandığı dövrdə Azərbaycanın Qarabağ bölgəsində 10 mindən artıq Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri mövcud idi. Amma Ermənistan bəyanatın 4-cü bəndini kobud şəkildə pozdu və ordusunun qalıqlarını Qarabağdan çıxarmaqdan imtina etdi. Müharibədən ötən 3 il ərzində onlar Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə qarşı davamlı şəkildə terror həmlələri həyata keçirir, əraziləri minalayır, yeni hərbi obyektlər yaradır, mühəndis qurğuları inşa edirdilər. Bütün bunların yolverilməz olması barədə Azərbaycanın xəbərdarlıqlarından nəticə çıxarmayan separatçıların Ermənistandan Qarabağa silah-sursat daşıdıqları da məlum idi. Aşkarlanmış minaların 2021-ci ildə Ermənistanda istehsal olunması Qarabağdakı separatçıların silah-sursatla təchiz edilmələrini təsdiqləyirdi.

Bütün bunların qarşısını almaq üçün Azərbaycan dövləti dəfələrlə xəbərdarlıq etdi. Eyni zamanda təmkinli davranış nümayiş etdirən rəsmi Bakı Qarabağda Azərbaycan dövlətinin konstitusion quruluşunun bərqərar edilməsi, birgəyaşayışın təmin olunması, o cümlədən separatçılığa son qoyulması üçün bütün siyasi-diplomatik imkanları işə saldı. Bir sözlə, rəsmi Bakı azərbaycanlılarla ermənilərin birgə yaşayışını təmin edəcək reinteqrasiya prosesinin həyata keçirilməsi, bu məsələlərin danışıqlar yolu ilə ölkə Konstitusiyası və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi.

Lakin Ermənistan və Qarabağdakı separatçılar hər vəchlə Azərbaycanın bütün təşəbbüs və təkliflərinə qarşı çıxdılar. Azərbaycanın humanist çağırışlarının əvəzinə Ermənistan Qarabağdakı silahlı qüvvələrini gücləndirməklə, Qarabağdakı ermənilərdən alət kimi yararlanmaqla, bütövlükdə, sülh prosesini sabotaj etməklə məşğul oldu.

Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə 2023-cü il aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında “Laçın” nəzarət-buraxılış məntəqəsinin yaradılması, əslində, Qarabağdakı separatçılar üçün xəbərdarlıq idi. Qeyd edək ki, Laçında sərhəd-buraxılış məntəqəsinin yaradılması Prezident cənab İlham Əliyevin Azərbaycanın milli maraqları uğrunda həyata keçirdiyi qətiyyətli və uzaqgörən siyasətinin mühüm təcəsümü idi. Bu yalnız müasir müstəqillik dövrümüzün deyil, son bir neçə əsrlik dövlətçilik tariximizin böyük hadisəsi oldu. Çünki bununla xanlıqlar dövründən bu yana ilk dəfə olaraq bütün sərhədlərimiz üzərində tam nəzarət hüququ təmin olundu. Bu tarixi uğur bir daha göstərdi ki, Prezident cənab İlham Əliyev Azərbaycanın milli maraq və mənafelərinin qorunması və təmin edilməsi istiqamətində dəqiq, uzaqgörən və müdrik strateji siyasi kurs müəyyən edib.

Laçında nəzarət-buraxılış məntəqəsinin yaradılması Ermənistan və separatçılar üçün xəbərdarlıq olmaqla yanaşı, onu göstərirdi ki, bütün sərhədləri boyu milli suverenliyini tam təmin edən Azərbaycan öz ərazisindəki “boz zona”nın da mövcudluğu ilə barışmayacaq, Qarabağdakı erməni separatçılığına mütləq son qoyacaq. 2023-cü ilin may ayında isə Prezident cənab İlham Əliyev Laçından separatçılara bir daha xəbərdarlıq edərək dedi: ***“Guya orada “parlament” fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə “parlament” buraxılmalıdır, özünü “prezident” adlandıran ünsür təslim olmalıdır, bütün “nazirlər”, “deputatlar” və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər”.***

Lakin ermənilər bundan nəticə çıxarmaq əvəzinə, 44 günlük müharibədəki məğlubiyyətlərindən dərs götürmək əvəzinə həm şərti sərhəddə, həm də Qarabağda Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərdə təxribatçı fəaliyyətlərini davam etdirirdilər. Həmin günlərdə Qarabağdakı ermənilərin Azərbaycan tərəfindən guya blokadaya alınmaları ilə bağlı Ermənistanın riyakarcasına məzlumluq obrazına girməsi, Fransanın yardım canfəşanlığı da ölkəmizə qarşı təxribatın tərkib hissəsi idi. Bununla onlar hər vəchlə sülh danışıqlarını sabotaj edir, kommunikasiyaların açılmasını əngəlləməyə, regionun problemlərinin həlli və inkişafı ilə bağlı bütün səyləri heçə endirməyə çalışırdılar. Hətta separatçılar elə arxayınlaşmışdılar ki, müstəqillik iddialarından dəm vurur, özlərinin oyuncaq “prezident”lərini seçir, qondarma “parlament”ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər.

Bütün bunların fonunda Qarabağdakı separatçılar tərəfindən Azərbaycan Ordusunun mövqelərinin sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, ermənilər tərəfindən döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi işlərinin aparılması, eləcə də səngər və sığınacaqların sayının artırılması, Azərbaycanın və xarici ölkələrin mülki təyyarələrinə qarşı radio-elektron müdaxilə halları gərginliyi daha da artımış, antiterror tədbirlərinin aparılmasını labüd etmişdi.

Artıq 2023-cü ilin sentyabrında vəziyyət daha gərgin və dramatik hal almışdı. Belə ki, sentyabrın 2-də Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Qarabağ iqtisadi rayonunda qondarma “prezident seçkiləri”inin keçirilməsi, Ermənistanın baş naziri Nikol Paşinyanın üzərinə düşən öhdəlikləri yerinə yetirmək əvəzinə bu təxribatçı əməli dəstəkləməsi, həmçinin sentyabrın 2-də qondarma və separatçı rejimə təbrik göndərməsi göstərirdi ki, Ermənistan məsələlərin danışıqlar və sülh yolu ilə həllindən uzaqdır. 2023-cü ilin sentyabr ayında Qarabağdakı erməni sakinlərə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni anda istifadə etməklə Beynəlxalq Qızıl Xaç Komitəsinin yük avtomobilləri ilə qida məhsullarının göndərilməsi Azərbaycanın gərginliyin azaldılması ilə bağlı niyyətinin göstəricisi olsa da, ermənilər bundan da nəticə çıxarmadılar, Azərbaycanın sülh təşəbbüslərinə, bölgədə birgəyaşayışın, sülh və sabitliyin, qanunun aliliyinin bərqərar olmasına yönəlmiş siyasətinə rəğmən pozucu fəaliyyətlərini davam etdirdilər.

### *“Dəmir yumruğ”un növbəti zərbəsi*

2023-cü ilin 19 sentyabr tarixində baş verənlər isə Azərbaycanın səbir kasasını daşıran hadisələr oldu. Həmin gün erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldular. Bundan başqa, həmin gün erməni separatçılarının törətdiyi növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak oldu. Ordumuzun bölmələrinin minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması nəticəsində isə iki hərbi qulluqçumuz yaralandı.

Bütün bunlar göstərdi ki, ermənilər “dəmir yumruq” üçün darıxıblar və onlarla güc dili danışmaqdan başqa yol yoxdur. Beləliklə, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, ermənilər tərəfindən törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan ordusunun birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, separatçıların cəzalandırılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Qarabağda Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa olunması məqsədilə ordumuzun bölmələri tərəfindən lokal xarakterli antiterror tədbirlərinin keçirilməsinə qərar verildi.

Sentyabr ayının 19-da başlayan antiterror tədbirləri cəmi 23 saat 43 dəqiqə çəkdi. Elə əməliyyatın ilk dəqiqələrindən gedişat Azərbaycan Ordusunun ən yüksək və modern döyüş imkanlarına malik olduğunu göstərdi. Cəmi bir neçə saata düşmənin ön xətt və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri sıradan çıxarıldı. Hər günü bir şanlı tarix olan 44 günlük Vətən müharibəsində olduğu kimi, ildırımsürətli antiterror əməliyyatında da ordumuz yenidən möhtəşəm zəfər tarixi yazdı.

Antiterror tədbirləri ordumuzun şəxsi heyətinin, əsgər və zabitlərimizin hərbi peşəkarlığının və vətənpərvərliyinin növbəti təsdiqi oldu. Vətən müharibəsində olduğu kimi bu dəfə də düşmənin mövqeləri əlverişli və üstün mövqelərdə idi. Dağlıq ərazi separatçılar üçün təbii istehkam rolunu oynayırdı. Amma nə gücləndirilmiş müdafiə qurğuları, nə coğrafi relyef ordumuzun qarşısını kəsə bilmədi və bir sutkadan da az davam edən əməliyyatda düşmən darmadağın edildi. Əməliyyat zamanı düşmənin min nəfərdən çox canlı qüvvəsi, yüzlərlə hərbi texnikası məhv edildi və bir o qədər də qənimət götürüldü. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də günorta lokal xarakterli antiterror tədbirləri dayandırıldı və separatçılar ağ bayraq qaldırdılar.

Prezident cənab İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində keçirilən paradda çıxışında bu barədə bildirib: ***“Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik”.***

Antiterror tədbirlərinin unikallığı həm də ondadır ki, bir nəfər də olsun mülki şəxsə və obyektə ziyan dəymədi. Baxmayaraq ki, ermənilər məqsədli şəkildə öz mövqelərini və hərbi texnikalarını yaşayış evlərinə, mülki infrastrukturlara yaxın ərazilərdə yerləşdirmişdilər. Ona görə antiterror tədbirləri hərb tarixində nadir əməliyyatlardan hesab olunur.

44 günlük savaşı zəfərlə başa vuran Azərbaycan qalib ölkə kimi bir çox təsir mexanizmlərinə sahib olsa da, hər zaman sülh və humanizm prinsiplərindən çıxış etdi. Lakin xəstə təfəkkürdən uzaqlaşa bilməyən ermənilər bunu anlaya bilmədilər. Beləliklə, cənab Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin xəbərdarlıqlarından nəticə çıxarmayan düşmən “dəmir yumruğ”un zərbəsini yenidən hiss etdi. Cəmi 23 saat ərzində başda Fransa olmaqla dünya erməniliyi Azərbaycanın qarşısında diz çökdürüldü, Qarabağda qeyri-qanuni xunta rejimi ləğv olundu, Azərbaycan dövləti özünün suverenliyini tam təmin etdi. Düşmənin bir zamanlar qurduğu “Arsax” adlı qondarma dövlətçilik oyunları və müstəqillik xəyalları iflasa uğradıldı. Prezident cənab İlham Əliyev bir daha sübut etdi ki, heç bir qüvvə Azərbaycanın milli maraqlarının qarşısını ala bilməz.

### *Mehriban xanım Əliyevanın təşəbbüsləri cəmiyyətimiz tərəfindən alqışlarla qarşılanır*

Antiterror tədbirlərində Azərbaycan hərbçiləri Vətən müharibəsində olduğu kimi vətənpərvərliyin və Vətəni sevməyin nümunələrini yaratdılar. 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərindəki nitqi zamanı Prezident cənab İlham Əliyev bu barədə deyib: ***“Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir”.***

Bu əməliyyat zamanı 192 hərbçimiz şəhidlik məqamına yüksəldi, 500-dən artıq hərbçimiz yaralandı. Bu gün doğma Qarabağ bizim üçün həm də ona görə müqəddəsdir ki, o torpaqlara qəhrəman şəhidlərimizin qanı hopub.

Böyük qürur hissi ilə qeyd etməliyəm ki, Silahlı Qüvvələrimizin sıralarında xidmət edən naxçıvanlılar da Vətən müharibəsində olduğu kimi antiterror əməliyyatları zamanı da qəhrəmancasına döyüşdülər, həlak oldular, yaralandılar. Vətən müharibəsində 3 mindən artıq şəhidimiz, eləcə də onlarla Naxçıvandan olan şəhidlərimiz kimi bu diyardan olan 10 hərbçimiz Qarabağda milli suverenliyimizin təmin edilməsi uğrunda gedən antiterror döyüşlərində şəhidlik zirvəsinə ucaldı. Müstəqil, suveren Azərbaycanımızın hər yerində olduğu kimi, bu gün ulu diyarımız olan Naxçıvanda şəhidlərimizin hər birinin xatirəsi dövlətimiz tərəfindən əbədiləşdirilir, onların ailələri, qazilərimiz hərtərəfli qayğı ilə əhatə olunur, xüsusi diqqət mərkəzində saxlanılır. Bu sırada Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlər, fondun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri nəinki seçilir, həssas insanlar, bütün Naxçıvan sakinləri və bütöv cəmiyyətimiz tərəfindən həmişə böyük rəğbət və alqışlarla qarşılanır.

Məlum olduğu kimi, Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondunun nümayəndələri Vətən müharibəsindən sonra hər bir şəhid ailəsinin üzvləri, o cümlədən yaralanmış hərbçilərimizlə görüşlər keçiriblər. Heydər Əliyev Fondunun xətti ilə 100-ə yaxın Vətən müharibəsi qazisinin müxtəlif ölkələrdə yüksək səviyyədə müalicəsi təmin olunub. Bütün bunlar Heydər Əliyev Fondunun timsalında dövlətimizin şəhid ailələrinə, veteranlara olan qayğısını göstərir.

Heydər Əliyev Fondunun prezidenti, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Vətən müharibəsində olduğu kimi antiterror tədbirlərində də yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini dərhal nəzarətinə götürdü, şəhid ailələrinin yanında oldu. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti kimi ötən 7 ildən artıq fəaliyyət dövrünün reallıqları Prezident cənab İlham Əliyevin ona özü qədər əminliyinin təsdiqi olmaqla yanaşı, sosial-humanitar sahədə, kadr siyasətində də nə qədər müdrik olduğunu sübut edib. Çünki Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın missiyası Prezident cənab İlham Əliyevin həyata keçirdiyi dövlətçilik kursunun prinsip və şərtlərinə uyğun olaraq respublikamızın inkişafına, beynəlxalq əlaqələrinin genişlənməsinə və xüsusilə sosial məsələlərə yönəlib. Eyni zamanda antiterror tədbirlərindən sonra Mehriban xanım Əliyevanın Prezident cənab İlham Əliyevlə birlikdə Qarabağa səfərlər etməsi, erməni separatçılarının əsarətdə saxladıqları yurd yerlərimizlə yaxından tanış olması onun vətənpərvərliyinin əsl təcəssümü oldu.

Bunlarla yanaşı, Mehriban xanım Əliyeva bütün yüksək tribunalardan istifadə edərək dövlətimizin haqq işini, milli suverenliyimizin bərpa olunmasını dünyaya bəyan edir. Məsələn, İstanbulda keçirilən dövlət və hökumət başçılarının xanımlarının “Fələstin üçün tək ürək” toplantısının iştirakçılarına Mehriban xanım Əliyevanın müraciətində deyilir: *“Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzü nəticəsində ərazilərimiz işğal olunmuş, bir milyona yaxın soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüş, 300-dən artıq şəhər və kəndimiz darmadağın edilmiş, dini və mədəni irsimiz dağıdılmışdır. Vaxtilə işğal edilmiş torpaqlarımızda 67 məsciddən 65-i yerləyeksan edilmişdir.*

*Təəssüflə qeyd etmək istərdim ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarını özü işğaldan azad etdi və bu ilin sentyabr ayında antiterror əməliyyatı ilə Ermənistan silahlı qüvvələrinin qalıqlarının mövcudluğuna və separatizmə son qoyaraq suverenliyini tam bərpa etdi. Bütün torpaqlarımız üzərində milli suverenliyimiz təmin olundu”.*

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən şəhidlərimizin bizə əmanəti olan övladlarına da xüsusi diqqətlə yanaşır, onların hər zaman qayğı ilə əhatə olunmasına çalışır. Naxçıvanda ev-ev, bütün şəhid ailələrinin, qazilərimizin qapısını döyən, onlara xanım Mehriban Əliyevanın, dövlətimizin xüsusi dəstəyini göstərən Ulu Öndərimizin adını daşıyan Heydər Əliyev Fondunun qayğısını, diqqətini bu diyarın sakinləri heç vaxt yaddan çıxarmayacaqlar. Təkcə Naxçıvanda deyil, bütün ölkəmizdə şəhid və qazi ailələrinə birdəfəlik müavinətdən tutmuş məişət şəraitinin yaxşılaşdırılmasına qədər, müalicə xərclərinin ödənilməsindən tutmuş təhsil haqqının, istehlak kreditinin ödənilməsinədək bütün humanist fəaliyyəti üstlənən Heydər Əliyev Fondunun ənənəvi bayram şənlikləri də bu kateqoriyadan olan ailələri, uşaqları sevindirmək məqsədilə təşkil edilir.

***

Hər bir dövlətin və xalqın tarixində həlledici sayılan hadisələr baş verib. 1991-ci ildə müstəqilliyimizin bərpası, 1993-cü ilə Ulu Öndər Heydər Əliyevin dövlətçiliyimizi və müstəqilliyimizi xilas etməsi, 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi də Azərbaycan xalqının tarixinin möhtəşəm hadisələridir. Ötən ilin sentyabrında keçirilən antiterror tədbirlərinin nəticəsində tariximizin möhtəşəm hadisələrinin sırasına biri də əlavə olundu.

Qarabağda separatizmə son qoyulması və milli suverenliyimizin təmin edilməsi olduqca əlamətdar dövrə təsadüf etdi. Belə ki, həmin vaxt respublikamızda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə bağlı tədbirlər keçirilir, qarşıdan isə Prezident cənab İlham Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyə başlamasının 20-ci ildönümü gəlirdi. Bu mənada, Qarabağda milli suverenliyimizin bərpa edilməsi həm Ulu Öndər Heydər Əliyevin xatirəsinə olan ümummilli ehtiramın ən böyük nümunəsinə çevrildi, həm də Zəfər çələngli Ali Baş Komandan Prezident cənab İlham Əliyevin 20 illik uğur hesabatının növbəti şərəfli səhifəsi yazılmış oldu.

**Bəxtiyar ƏSGƏROV**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***



# "Dəmir yumruğ"un təntənəsi – Dövlət Suverenliyi Günü

## *Hərb tarixinin ən sərrast, ən adil əməliyyatı – lokal xarakterli antiterror tədbirləri*

*(əvvəli 1-ci səhifədə)*

Separatçı qüvvələr törətdikləri təxribatlara qarşı Azərbaycan Ordusundan dəfələrlə aldıqları zərbələrdən dərs çıxarmaq əvəzinə gün ötdükcə daha da azğınlaşıb, daha da quduzlaşdılar. Qarşı tərəf hərbi sahədəki provakasiyaları diplomatiyada, siyasət meydanında da böyük şövqlə, həvəslə davam etdirdi. Nə Brüssel Sülh Gündəliyində söz verdikləri kimi, vaxtilə imzaladıqları 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə sadiq qaldılar, nə də keçirilən üçtərəfli görüşlərdə irəli sürülən humanist təkliflərlə razılaşdılar. Hər dəfə bir bəhanə, bir oyunla həm yerli, həm də beynəlxalq ictimaiyyəti çaşdırmağa, mənasız yerə vaxt uzatmağa çalışdılar. Gah humanitar məqsədli "Laçın" dəhlizindən çirkin hərbi-siyasi məqsədlər naminə istifadə edərək müxtəlif diversiya qrupları ilə təxribatlara əl atdılar, ərazilərimizi minalayaraq onlarla günahsız insanın həyatına son qoydular, gah "məsumluq" donuna bürünərək yalandan aclıq aksiyasına qalxıb haray-həşir qopardılar, gah da "Spayka" şousu göstərərək Xankəndidə heç bir hüquqi əsası olmayan qondarma prezident seçkiləri keçirməklə dünya ictimaiyyəti qarşısında özlərini rəzil vəziyyətə saldılar. Ancaq Qalib Azərbaycan Liderinin siyasi iradəsi, müzəffər Ordumuzun qüdrəti qarşısında bütün çirkin siyasi, diplomatik gedişlər, hərbi hiylələr iflasa uğradı, qurulan oyunlar acı məyusluqluğa, məğlubiyyətə düçar oldu. Beləliklə, ötən il sentyabrın 19-20-də 24 saata yaxın zaman çərçivəsində reallaşdırılan antiterror tədbirləri ilə məzmun və mahiyyətinin zərrə qədər dəyəri olmayan, mənfi obrazlarla zəngin, cəfəng fikir və düşüncələrdən yoğrulan 30 illik uydurma erməni nağılı, nəhayət ki, həmişəlik bitdi. Birliyin, həmrəyliyin gücü, "dəmir yumruğ"un möhtəşəm təntənəsi ilə əzəli yurdumuz Qarabağın hər qarışında separatizmin kitabı bağlandı, erməni mərəzinin kökü kəsildi...

Azərbaycan Müdafiə Nazirliyindən verilən son açıqlamaya görə, antiterror əməliyyatı zamanı cəmi bir gün ərzində 406 kvadratkilometr ərazi yad ünsürlərdən təmizlənərək ordumuzun tam nəzarəti altına alınıb. Bölmələrimizin dəqiq zərbələri nəticəsində düşmənin 8 tank, 22 artilleriya sistemləri, 14 minaatan, 3 zenit kompleksi, 8 REM vasitələri, 9 hərbi nəqliyyat vasitəsi olmaqla silah və texnikası məhv edilib. Həmçinin əməliyyatın nəticəsi olaraq 1731 müxtəlif döyüş texnikası, artilleriya vasitələri, zenit-raket qurğuları, hərbi avtomobil, xüsusi texnika və digər döyüş vasitələri, eləcə də 18 min 664 atıcı silah düşməndən müsadirə edilərək götürülüb. Bundan başqa, bəlli olub ki, əməliyyat şimalda beş, cənubda isə səkkiz olmaqla, 13 istiqamətdə həyata keçirilib. Vətən müharibəsindəki təcrübədən yararlanaraq və əməliyyatın keçirildiyi ərazinin relyefi də nəzərə alınaraq bölmələrimiz, əsasən, kiçik qruplar halında hərəkət edib. Bu da həm sürətli hərəkəti təmin edib, həm də düşmən üçün qəfil yaxalanma effekti yaradıb. Bir neçə saatdan sonra düşmən dərinliyinə sızan və 9,5 kilometr irəliləyən xüsusi təyinatlı bölmələrimiz bütün istiqamətlərdə əraziyə girişçıxışa nəzarətin tam təmin olunması üzrə tapşırığı uğurla icra edib. Ümumilikdə, onu vurğulamaq olar ki, Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirərək beynəlxalq humanitar hüququn norma və prinsipləri çərçivəsində, heç bir mülki şəxsi və ya obyekti hədəfə almadan antiterror əməliyyatı keçirib və 24 saatdan da az müddətdə 15-18 minlik hərbi qruplaşmanı təslim olmağa məcbur edib. Antiterror əməliyyatının açıqlanan bu yeni faktları da bir daha müharibədən sonra ölkəmizdə hərbi quruculuq işinin mükəmməl şəkildə reallaşdırıldığını və xalqımızın qələbə əzminin, "dəmir yumruğ"un yenilməzliyinin sarsılmaz olduğunu bütün dünyaya sübut etdi...

Müzəffər Ordumuzun yüksək peşəkarlığının ən bariz göstəricisi sayılan lokal xarakterli antiterror tədbirləri ilə Ağdərə, Əsgəran, Xocavənd, Xocalı və Xankəndi separatçı rejimin tör-töküntüsündən təmizləndi, ölkəmizin suverenliyi, ərazi bütövlüyü tam təmin olundu. Qarşı tərəfin provakasiyalarına baxmayaraq, bir mülki şəxsin belə xəsarət almadığı əməliyyatla Azərbaycan Ermənistana növbəti dəfə humanistlik dərsi keçdi. Əzəli torpaqlarımızda üçrəngli Azərbaycan Bayrağının qaldırıldığı gün – oktyabrın 15-i isə ikiqat mühüm an kimi tarixə düşdü. Həmin gün yaşanan bu böyük xoşbəxtlik 100 illiyi qeyd olunan Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu yolun təntənəsi, hakimiyyətə gəlişinin 20 ili tamam olan Prezident cənab İlham Əliyevin Qalib Lider kimi xalqına siyasi fəaliyyətinin ən böyük yubiley hədiyyələrindən oldu. Xankəndidə Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edən ölkə başçısı məhz bu məqama toxunaraq dedi: ***"Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".***

Antiterror tədbirləri sayəsində vaxtilə soydaşlarımızın ölümünə fərman verən, xalqımıza hədə-qorxu gəlməyə çalışan qondarma rejimin dırnaqarası "prezidentləri", "nazirləri", "generalları" da qandallanıb dəmir barmaqlıqlar arasına salındı. Bir vaxtlar Bakıda çay içmək arzusu ilə yaşayan, xəbərdarlıqlara məhəl qoymayan separatçılar indi istintaq təcridxanasında "pürrəngi" çaydan içib dizlərini qucaqlayaraq ədalət məhkəməsinin qərarını gözləyirlər. Bəli, Azərbaycan öz gücü hesabına beynəlxalq təşkilatların etməli olduqlarını etdi, mövcud tarixi ədalətsizliyə son qoydu, haqq işığını yandırdı. Ən qısa vaxt, minimum itki ilə dünya hərb tarixində mühüm örnək sayılan bu əməliyyat müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsindən sonra qüdrətinin və döyüş təcrübəsinin daha da artdığını sübut etdi. Heç bir kənar müdaxiləyə yol verilmədən aparılan antiterror tədbirləri, eyni zamanda Qalib Liderin uğurlu diplomatiyasının, siyasi qətiyyətinin bariz ifadəsinə çevrildi. Beləliklə, 30 illik Xocalı, Xankəndi həsrəti sona yetdi, əzəli yurdlarımıza həyat qayıtdı.

Bəli, bu gün lokal xarakterli antiterror tədbirlərinin birinci ildönümü Ali Baş Komandanın "dəmir yumruğ"unun möhtəşəm təntənəsi, ölkə Prezidentinin sərəncamları ilə Xankəndi, Xocalı, Xocavənd, Ağdərə şəhərləri, Dövlət Suverenliyi günləri kimi müzəffər xalqın nümayəndələri olaraq böyük qürurla, fəxrlə qeyd edirik. Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşündə 20 sentyabrın bundan sonra Azərbaycanda geniş qeyd ediləcəyini vurğulayan ölkə Prezidentinin də dediyi kimi, biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz. Nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, – çünki bütün təpələrdə onlar yerləşmişdi, – nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran, onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Heç kim. Sitat: ***"Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi".***

Böyük Zəfərimiz əbədi, Dövlət Suverenliyi Günümüz mübarək olsun!

**Nail ƏSGƏROV**



## Yeni tədris ilində Şərur rayonunun Təzəkənd tam orta məktəbi əsaslı təmirdən sonra kollektivin istifadəsinə verilib



Sentyabrın 16-da Şərur rayonunun Təzəkənd tam orta məktəbinin yeni binası əsaslı təmirdən sonra kollektivin istifadəsinə verilib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov və Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov kollektivlə görüşüblər.

Görüşdə son dövrlərdə ölkədə təhsilə göstərilən dövlət qayğısından bəhs edilib, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin təbrikləri kollektivə çatdırılıb.

Məktəbdə yaradılan tədris şəraiti ilə tanışlıq zamanı məlumat verilib ki, 110 yerlik məktəb binasında əsaslı təmir işləri aparılmış, binanın dam örtüyü, qapı və pəncərələri dəyişdirilmiş, suvaq və boyama işləri aparılmışdır. Həmçinin STEAM otağında və fizika kimya laboratoriyasında elektron lövhə quraşdırılmış, kompüter otağına yeni kompüter dəstləri qoyulmuş, məktəbdə kamera sistemləri quraşdırılmış, kitabxana əlavə ədəbiyyatlarla zənginləşdirilmişdir. Məktəb üçün fərdi qazanxana yaradılmış, binanın həyətində açıq idman qurğuları quraşdırılmış, həyətyanı sahədə abadlıq işləri aparılmış, yaşıllıq sahəsi salınmış, işıqlandırma və suvarma sistemləri yenilənmişdir.

Məktəbin kollektivi onlar üçün yaradılan tədris şəraitinə görə minnətdarlıqlarını bildiriblər.




## Süni intellekt: Nəzəriyyədən praktikaya beynəlxalq elmi konfransı olub



Naxçıvan Dövlət Universitetində keçirilən konfransdan öncə qonaqlar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsi önünə gül dəstəsi qoyaraq Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Heydər Əliyev Muzeyinə gələn qonaqlar Ümummilli Liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olublar.

Üz-üzə və onlayn keçirilən konfransın açılış tədbiri baş tutub.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Rusiyanın "Cənub" Universitetinin təşkilatçılığı ilə keçirilən konfransda çıxış edən universitetin rektoru Elbrus İsayev Azərbaycan, Türkiyə, Rusiya, Özbəkistanın nüfuzlu elm adamlarının və İBM-in Çexiya və Slovakiya üzrə nümayəndəsinin iştirakı ilə baş tutan konfransı müsbət qiymətləndirib.

Qeyd olunub ki, universitetin strateji hədəfləri çərçivəsində Texnologiyalar Parkının qurulmasında süni intellektlə bağlı araşdırmaların aparılması nəzərdə tutulub. Bu da müəllimlər və gənc tədqiqatçılar üçün mühüm əhəmiyyət daşıyır. Diqqətə çatdırılıb ki, konfransın hər il davamlı olaraq dünyanın müxtəlif qabaqcıl tədqiqat müəssisələri və universitet əməkdaşlarının iştirakı ilə keçirilməsi nəzərdə tutulub.

"Cənub" Universitetinin rektoru, professor İmran Əkbərov bildirib ki, hazırda təhsil, elm, səhiyyə, iqtisadiyyat, media, incəsənət və digər sahələrdə süni intellekt əsaslı tətbiqlər sürətlə genişlənir. Qeyd olunub ki, universitetlərdə data elmi, süni intellekt fokuslu proqramların artması bu sahəyə diqqəti daha da artırır.

Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir səlahiyyətlərini icra edən Rahid Ələkbərli bulanıq məntiq nəzəriyyəsi, süni intellektin üstünlükləri və yarada biləcəyi təhlükələr, süni intellekt vasitəsilə kibertəhlükəsizliyin gücləndirilməsi, süni intellektin istehsal sənayesində tətbiqi, süni intellektin etik və sosial təsirləri və bir çox önəmli məqamlar konfrans iştirakçılarının nəzərinə çatdırılıb.

Bakı Dövlət Universitetinin nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitunun direktoru Fikrət Əliyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının direktoru Yusif Alıyev, Özbəkistanın Buxara Texnoloji İnstitunun alimləri – Uluqbek Muradiloeviç, Nizamov Aslitdin Badreddinoviç, Türkiyənin Ağrı İbrahim Çeçen Universitetinin professoru Ahmet Ocak, Düzce Universitetinin dosenti Serdar Biroğul, Naxçıvan Dövlət Universitetinin professoru Cavanşir Zeynalov çıxışlarında süni intellektin cəmiyyətin bütün təbəqələrini əhatə edən qlobal bir inqilabın mərkəzinə çevrildiyini qeyd edərək süni intellektin nəzəri əsaslarından və praktik tətbiqləri haqqında ətraflı məlumat veriblər.

Sonra konfrans elmi bölmələrdə panel müzakirələrlə işini davam etdirib. Sonda iştirakçılar sertifikatla təltif ediliblər.

Qeyd edək ki, konfransa gələn yerli və xarici qonaqların muxtar respublikanın tarixi və turistik məkanlarına gəzintiləri də təşkil edilib.

## Sosial qayğıya ehtiyacı olan uşaqlara məktəbli geyimləri verilib



15 sentyabr – Bilik Günü ərəfəsində sosial qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud, təkvalideynli, şəhid və qazi uşaqları, aztəminatlı və çoxuşaqlı ailələrdən olan uşaqlar məktəbli geyimləri ilə təmin ediliblər. Qeyd edək ki, muxtar respublika üzrə sosial qayğıya ehtiyacı olan 173 uşağa məktəbli geyimləri verilib. Məktəbli geyimləri muxtar respublikanın rayonlarında keçirilən analoji tədbirlərdə uşaqlara təqdim edilib.

## Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Beynəlxalq Forumda iştirak edir




Sentyabrın 18-20-də maliyyə naziri Həsən İsmayılov Bakı şəhərində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Yaşıl iqtisadiyyat şəraitində hesabatlılıq və şəffaflıq" mövzusunda keçirilən "Mühasiblərin və Auditorların VIII Avrasiya Forumu"nda iştirak edib.

"Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyası (APFM)" və "SOCAR Bakı Ali Neft Məktəbi"nin birgə təşkilatçılığı ilə keçirilən forumda Həsən İsmayılov çıxış edərək bildirib ki, builki forum Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, Azərbaycanın COP29 kimi nüfuzlu tədbirə ev sahibliyi etməsi ilə xarakterizə olunur və forumu daha da əhəmiyyətli edir. "Yaşıl iqtisadiyyat"ın formalaşması həm ətraf mühitin qorunmasında, həm də mövcud olan təbii ehtiyatlara və müasir biliklərə əsaslanan davamlı inkişafın təmin edilməsində mühüm şərtdir.

Nazir qeyd edib ki, mühasibatlığın inkişafı dövlətin iqtisadi və maliyyə strategiyasının uğurla həyata keçirilməsi üçün vacibdir. Bu inkişaf yalnız dövlət sektorunda deyil, həmçinin özəl sektorun şəffaf və hesabatlı fəaliyyət göstərməsi üçün də önəmlidir. Düzgün və şəffaf qurulmuş mühasibat uçotu vasitəsilə dövlət orqanları arasında məlumat mübadiləsi və koordinasiya təkmilləşir, maliyyə hesabatlarının düzgün aparılması ilə dövlət idarəetməsinin effektivliyi artır, resursların düzgün bölüşdürülməsi və təyinatı daha səmərəli olur, dövlətin maliyyə resurslarını effektiv və şəffaf şəkildə idarə etməsinə kömək edir.

Maliyyə naziri vurğulayıb ki, Naxçıvan Muxtar Respublikasında gələcək üçün maliyyə və mühasibatlıq sahəsində innovativ yanaşmalar prioritet hesab edilir. Rəqəmsallaşma və texnologiyaların inteqrasiyası mühasibatlıq sistemlərinin sadələşdirilməsini və daha dəqiq məlumatların təmin olunmasını mümkün edir, şəffaflığı daha da artırır. Bu tənzimləmələr dövlətin maliyyə nəzarətini gücləndirməklə yanaşı, özəl sektorda da maliyyə proseslərinin inkişafına və tənzimləməsinə dəstək verir.

Avropa və Asiyanın nüfuzlu qurumlarının rəhbərlərinin, xarici peşəkar mütəxəssislərin, həmçinin Azərbaycanda fəaliyyət göstərən bir sıra dövlət qurumlarının və təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən forumda "Yaşıl iqtisadiyyat" şəraitində əsas çağırışlara dair məruzələr dinlənilib, beynəlxalq qurumlarla Əməkdaşlıq Memorandumları imzalanıb.

## Ölkədə ilk dəfə Naxçıvan Dövlət Universitetində Tibb ixtisası üzrə SABAH qruplarına tələbə qəbulu keçirilib



SABAH qruplarına qəbul olan tələbələrlə görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, SABAH qrupları layihəsi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsis edilib. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvan Dövlət Universiteti üçün nəzərdə tutulmuş prioritet məsələlərdən biri universitetdə yeni məzmunlu proqramların (SABAH və sair) təşkilidir. Dövlət Proqramının icrası ilə əlaqədar olaraq ölkəmizdə ilk dəfə olaraq məhz Naxçıvan Dövlət Universitetində 2024-2025-ci tədris ilindən etibarən Tibb ixtisası üzrə SABAH qrupları fəaliyyətə başlayıb. Bildirilib ki, Dövlət Proqramı əsasında istifadəyə verilməsi nəzərdə tutulan yüksək standartlara cavab verəcək Tibb kampusu SABAH qruplarının tələblərinə uyğun, peşəkar tibb kadrlarının hazırlanmasına öz töhfəsini verəcək. Diqqətə çatdırılıb ki, SABAH qruplarında tədrisin təşkili xüsusi tədris planı əsasında həyata keçiriləcək. Elbrus İsayev vurğulayıb ki, SABAH qrupları layihəsində ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbələrin yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadrlar hazırlanacaq.

Sonra Tibb ixtisası üzrə II kurs tələbəsi Şövkət Əlisoy tələbələr adından göstərilən diqqət və yaradılan fürsətlərə görə minnətdarlıq edib, gələcəkdə peşəkar kadr kimi formalaşıb tibb sahəsinə öz töhfələrini verəcəklərinə söz verib.

Daha sonra tanınmış cərrah Cəfər Quliyevin görkəmli onkoloq alim, akademik Rəhim Rəhimova həsr etdiyi "Ordubaddan doğan günəş" kitabı tələbələrə hədiyyə olunub.

Qeyd edək ki, SABAH qruplarına imtahanlar test və müsahibə mərhələsi olmaqla, iki istiqamətdə həyata keçirilib. Ən yüksək bal toplayan 21 nəfər layihədə iştirak etmək şansı əldə edib. Həmçinin SABAH qruplarında dərs tədris edəcək müəllimlər də müvafiq fənlər və ixtisaslar üzrə müsahibə mərhələsindən keçərək layihədə iştirak etmək hüququ əldə ediblər.

## "Culfa" yarımstansiyasına yeni güc transformatorları alınıb

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin "Şərq qapısı" qəzetinə verdiyi məlumata görə, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq Dövlət Energetika Xidməti tərəfindən elektrik yarımstansiyalarının yenidən qurulması istiqamətində işlər davam etdirilir. Ötən əsrin 90-cı illərinin sonunda qurulan, qurğu və avadanlıqları uzun müddətdir, istismar olunan sistem əhəmiyyətli 132/110/10 kilovoltluq "Culfa" yarımstansiyasının qidalandırıcı yüksəkgərginlikli elektrik xətlərinin yaşayış sahələrindən çıxarılması məqsədilə yerini dəyişdirməklə yenidən tikilib-quraşdırılması işləri aparılır. Yarımstansiya üçün yeni 2 ədəd 110/35/10 kV-luq, 16 MVA gücündə transformatorun alınması məqsədilə dövlət satınalma müsabiqəsi həyata keçirilib. Müsabiqənin qalibi "Orbital Engineering" MMC ilə satınalma müqaviləsi imzalanıb. Müqaviləyə uyğun olaraq alınacaq 2 ədəd güc transformatorundan 1 ədədi muxtar respublikaya gətirilib və yarımstansiyada quraşdırılması işləri aparılır.

Yaxın zamanlarda digər güc transformatoru da muxtar respublikaya gətiriləcək. Tikinti-quraşdırılması davam etdiriləcək 36 MVt gücündə "Ordubad" Su Elektrik Stansiyasından 87 MVt gücündə Naxçıvan Modul Elektrik Stansiyasına çəkiləcək iki dövrəli 110 kV-luq hava elektrik verilişi xəttinin bir dövrəsinin yarımstansiyaya birləşdirilməsi də nəzərdə tutulur. Yarımstansiya Culfa şəhərində və rayonun Yaycı, Dizə kəndlərində istehlakçıların keyfiyyətli elektrik enerjisi tələbatını ödəməklə yanaşı, elektrik enerjisinin texniki itkilərini azaltmaqda mühüm rol oynayacaq. Sadalanan bölgələri qidalandıran mövcud 10 kV-luq elektrik xətti yeni yarımstansiyadan qidalandırılacaq 35 kV-luq gərginlik pilləsinə keçiriləcəkdir. Həmçinin yeni yarımstansiyaya mövcud İran İslam Respublikası ilə 132 kV-luq "Culfa-Culfa" hava elektrik verilişi xətti qoşulacaqdır.







# 100 ilin qəhrəmanları

***“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Naxçıvan şəhərindən olan şəhidimiz Fuad Əlizadənin anası Şəfa Əliyevanın, Naxçıvan şəhərindən olan şəhidimiz Vəli Quliyevin anası Həqiqət Quliyevanın və Şahbuz rayonunun Külüs kəndindən olan şəhidimiz Firuz Qureşlinin anası Yeganə Həsənovanın övladları haqqında xatirələri yer alıb.***

## Fuad Nazim oğlu Əlizadə

*(05.07.1994-07.11.2020)*

## Ən müqəddəs və uca zirvə





Fuadın ilk olmağı bacarması məktəb vaxtlarından, parta arxasından başlayıb. Mən onu görürdüm. Bir ana kimi hiss edirdim. Birinci sinifdə oxuyarkən birinci partanı heç bir uşaqla bölüşmədi. 5 qiymətlərlə oxudu. Nümunəvi şagird oldu. Müəllimləri həmişə ondan razılıq edirdilər. Sinif yoldaşlarına qarşı da mehriban idi. Geridə qalan uşaqlara kömək edəndə sevinirdi. O da yadımdan çıxmır ki, əsgər görəndə çox diqqətlə baxırdı. Düşünürdüm ki, yəqin, uşaq həvəsidir. 8-ci sinfi bitirdikdən sonra hərbi liseyə sənəd verdi. Bir neçə gün sonra imtahan oldu. Qəbul edildiyini eşidəndə sevincindən bilmirdi ki, nə etsin.

Müharibə başlamazdan əvvəl hey deyirdi ki, ana, sənin bizi məktəbə apardığın vaxtları unuda bilmirəm. Hər dəfə məzuniyyətə gələndə də eyni qaydada təkrarlayırdı o sözləri.



2011-ci ildə liseyi də nümunəvi kursant kimi bitirib, akademiyaya daxil oldu. Leytenant rütbəsi ilə həmin akademiyanı bitirdi. 2015-ci ildən Toğana qəsəbəsinə hərbi qulluğa göndərildi...

Fuadgil ilk olaraq Murovdağda Buzluq adlandırılan mövqedən başlayıblar müharibəyə. Daha sonra Cəbrayıl, Qubadlı, Laçın, Füzulidə də olublar. Döyüş yoldaşlarına deyirdi ki, mən nə vaxt geri çəkilsəm, siz də çəkilərsiniz. Hər zaman öndə gedirmiş.

2016-cı il Aprel döyüşlərində şəhid olan döyüş yoldaşlarının ölümü ilə barışa bilmirdi. Deyirdi ki, onlar mənimlə sağ-salamat döyüşə getdi, amma biz onların bir hissəsi ilə geri qayıda bildik. 44 günlük Vətən müharibəsində ürəyində qəribə bir hiss var idi. Deyirdim ki, Aprel döyüşlərində sənə heç nə olmadı, buradan da sağ qayıdarsan. Məni qəhrəman ana adlandırırdı. Mən o adın ağırlığını daşıya bilməzdim. Deyirdim ki, qoy elə mən Fəridin, Fuadın anası olaraq qalım…

Müharibə zamanı tez-tez əlaqə saxlaya bilmirdik. Ehtiyat edirdik. Noyabrın 3-ü zəng etdi. Son döyüşlər gedən müddət idi. Deyirdi ki, mənə zəng vurmayın. İmkan olanda özüm zəng edəcəyəm. 23 gün biz onunla əlaqə saxlaya bilmədik. Bir neçə yerə müraciət etdik. Ancaq məlumat ala bilmədik… Demək, Laçın və Qubadlı istiqamətində bir neçə kəndi azad edib dayanıblar. Fikirləşiblər ki, postlarda az erməni qalıb. Döyüşə yenidən girən vaxt mühasirəyə düşüblər. Komandiri deyir ki, həmin vaxt 15 nəfər Fuadla birgə şəhid olub…

Ruhları şad olsun! Allah bütün şəhid analarına səbir versin!

## Vəli Vəli oğlu Quliyev

*(30.08.1997-19.10.2020)*

## Azad olunan torpaqlarımızda onun ayaq izi var





Vəli haqqında danışmaq bir ana kimi mənim üçün böyük fəxrdir. Bütün şəhid anaları üçün də belədir. Çünki onlar 30 il düşmən tapdağı altında olan torpaqlarımızı azad etdilər. Ölümdən qorxmadılar. Özlərini düşünmədilər, bizi düşündülər. Bu gün Vəli ilə qürur duyuram. Övladım barədə nə qədər danışsam da, azdır. Allah bütün valideynlərə Vəli kimi övlad nəsib etsin. Vəli bizə qarşı çox qayğıkeş idi. Bir sözümüzdən çıxmazdı. Ağıllı, tərbiyəli mehriban, gülərüz idi. Qohum-qonşu da ondan razılıq edirdi. Bir ana kimi çox sevinirdim ki, belə övlad böyütmüşəm. Nə biləydim ki, bu günü də yaşamaq mənə qismət olacaq? Vəli həm də Vətəninə, millətinə bağlı bir oğul idi. Yoldaşları da onun haqqında həmişə xoş sözlər danışırlar. Deyirlər ki, Vəli onlara qarşı da belə idi. Bu yaxınlarda xeyli sevindik. Digər oğlum Maqsudun övladı dünyaya gəldi. Adını Vəli qoyduq. İnşallah, o da adını daşıdığı Vəli əmisi kimi Vətəninə, millətinə xeyrli bir övlad olar. Düşünürəm ki, kiçik Vəli böyüyəndə əmisinin keçdiyi ömür yolu ilə fəxr edəcək. Qürur duyacaq ki, bir qəhrəmanın adını daşıyır. Çalışacaq ki, o ada layiq olsun. Qəhrəman əmisinin adına ləkə gətirməsin.



Bu gün azad olunan torpaqlarımızda Vəlinin də ayaq izi var. Bu ayaq izləri ərazimizi bütövləşdirən izlərdir. Onu da deyim ki, bir ana kimi övladla sınanmaq ən çətin imtahandır. Bu imtahana dözürəm. Çünki mənim balam bizim başımızı uca etdi. Şəhidlik hər adama qismət olmur. Düzlüyü sevirdi. Sözündə bütöv idi. Telefon söhbətlərində oğlum deyirdi ki, biz heç kəsin haqqına girməmişik. Hər şeyi düz edirik. Allah bizə, inşallah ki, şəhidlik qismət edər. Balam öz arzusuna çatdı. Şəhidlik zirvəsinə ucaldı. Xalqımın qəhrəmanına çevrildi. Bu gün Vəli və digər şəhidlərimiz hər bir azərbaycanlının qəlbində yaşayır. Mənim də arzularım çoxdur. Onlardan birincisi xalqımızın daim sülh şəraitində yaşamasıdır. Onda bizim də şəhid balalarımızın ruhu şad olur. Allah mənə Vəlinin yanına üzüağ getməyi nəsib etsin.

## Firuz Əli oğlu Qureşli

*(03.12.1993-10.10.2020)*

## Düşmənə sinə gərən qeyrətli Vətən oğlu







Firuz orta məktəbdə əlaçı şagird kimi seçilirdi. Fikri, düşüncəsi, arzusu isə hərbçi olmaq idi. İstəyirdik ki, başqa peşə seçsin, dedi ki, mən hərbçi olacağam. Orta məktəbdə oxuyanda ən böyük arzusu Qarabağa getmək idi. Hətta bir dəfə müəllimi ilə söhbətində ona söz vermişdi ki, işğaldan azad olunan torpaqların qəhrəmanlarından olacaq. Hey düşməndən qisas alaraq, işğal edilmiş torpaqlarımızı azad etmək arzusunu dilə gətirirdi.

Xidmətdə olanda danışarkən Naxçıvana gəlməsini deyirdik. Cavabı isə Qarabağ alınsın, sonra gələcəyəm olurdu. Deyirdi ki, poliqona çıxanda Qarabağı görürük. Buradan çox gözəl görsənir. Firuz həmişə nümunəvi olub. Orta məktəbi də, hərbi məktəbi də əla qiymətlərlə bitirmişdi. Sonra Ali Hərbi Məktəbdə təhsilini davam etdirib. Daha sonra da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində dinləyici olub. Bu müddətdə o təcrübəli, peşəkar hərbçi kimi yetişdi. Vətənpərvər idi. Mübarizlik qanına hopmuşdu sanki. Arzusu general rütbəsinə yüksəlmək idi. Evdən-eşikdən uzaq qalmasına səbəb də Vətən sevgisi idi. Kənddə xüsusi xətir-hörmət qazanmışdı.

Ailəsinə də bağlı idi. Baş leytenant olan Firuz həmişə deyirdi ki, əsgərlər də mənim bir ailəmdir. Peşəsini həddindən çox istəyirdi. Forma əynində olanda gözlərinin içi gülürdü. Evə də gələndə ancaq hərbidən, Vətən sevgisindən danışardı. Məzuniyyətdə olduğu müddətdə də əsgərləri ilə əlaqə saxlayıb, maraqlanırdı.

Müharibə başlayanda da telefon əlaqəmiz olurdu. İrəli getdiklərini deyirdi. Bir ana, bir azərbaycanlı kimi mən də sevinirdim ki, torpaqlarımız düşməndən alınır. Sonuncu dəfə oktyabr ayının 5-də əlaqə saxladıq. Dedi ki, özünüzdən muğayat olun. Biz yaxşıyıq, ancaq irəli gedirik. Qələbə bizimdir, bizim də olacaq. İnşallah, qələbə ilə geri dönəcəyik. Ondan yadigar övladı Duyqudur. Qızı böyüyəndə atasının necə qəhrəman olduğunu bilib fəxr edəcək. Şəhid qızı olması ona qürur verəcək.

İndi də hərbçi yoldaşları onun döyüş meydanına necə ruh yüksəkliyi yaradaraq inamla irəli getdiyindən danışırlar.

Həmişə fəxrimiz olub. Həmişə də qürur duymuşuq onunla. İndi də qürur duyuram. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə cansağlığı arzulayıram. Bayrağımız hər zaman ucalarda dalğalansın.

# Zəfər ovqatlı payız düşüncələri...



***Bir yayı da geridə qoyduq… İndi artıq mövsümlərin ən işvə-nazlısı olan payızı qarşılayırıq. Bəli, bir payız da ömrümüzə belə qədəm qoyur… Al- əlvan rəngləri ilə sanki ana təbiətin qoynunda hana salıb xalı toxuyan, bağ-bağatların barını-bəharini sovuşduran, ağacların canlarından həyat nişanəsi olan yaşılı çıxarıb, onlara ömrün xəzan çağını xatırladan sarı don geyindirən qızıl payızın ilk sevincini yaşayırıq. Niyə də yaşamayaq? Nə üçün hər fəslin varlığımızda buraxdığı acılı-şirinli xatirələri, pis-yaxşı anları əsən küləyin vıyıltısında, yağan yağışın zümzüməsində, buludlardan ələnən qarın ahəngində yad etməyək, xatırlamayaq? Axı hər fəsil öz gəlişi ilə həyatımıza fərqli ab-hava bəxş edir, nostalji duyğular yaşadır. Qış öz sərtliyi, soyuqluğu ilə insan ömrünün təlatümlü xatirələrini yada salır, yaz öz təravəti, gümrahlığı ilə ruhumuza hopmuş süstlüyü alıb aparır. Yay öz istisi, hərarəti ilə bizləri yorsa da, bir-birindən maraqlı hadisələri həyatımıza qonaq edir, fərqli xatirələri gözümüzdə canlandırır. Məsələn, ömrümüzün ən xoş xatirələri ilə yaddaqalan tələbəlik illəri kimi… Payız isə əsən küləyində, yağan yağışında, çiskinində, dumanında hər birimizə ülvi duyğular bəxş edir.***



… Kimisi topa-topa buludlardan torpağa çilənən nur damlaların paklığında ömrünün gənclik çağlarını xatırlayır, o illərin xiffətini çəkir, kimisi küçələrə səpələnmiş, saralmış yarpaqlarda həyatın enişli-yoxuşlu yollarında qazandıqlarını və ya itirdiklərini yada salır. Bir sözlə, hər mövsüm özündə fərqli təbiət qanunlarını birləşdirdiyi kimi, həm də müxtəlif həyat hekayələrinə yoldaşlıq edir. Bu hekayələrin, yaşanmışların, olub-keçənlərin hər birimizdə öz yeri olsa da, bəzi hadisələr vardır ki, onların ürəyimizdə, mənəviyyatımızda tutduğu yer də, məqam da eynidir, dəyişməzdir. Həmin hadisələri göz önünə gətirəndə nəinki bir fərd kimi, ailə kimi, hətta bütöv bir xalq olaraq eyni qüruru yaşayır, eyni sevinci bölüşürük. Məsələn, xalqımızın zəfər payızı kimi…

Artıq dörd ildir ki, xalqımız təqvimə qədəm qoyan hər payızı, Zəfər payızı kimi qeyd edir. Bu mövsümün ilk ayı olan sentyabr isə xalqımız üçün, sözün həqiqi mənasında, əlamətdar hadisələrlə yadda qalır. Sentyabr həm Qarabağ zəfərinə gedən yolun başlanğıcı, həm də Zəfər payızının ilk ayıdır. Xalqımız nə az, nə çox, düz 30 il idi ki, mübariz ordumuzun bu zəfərini gözləyirdi. 30 il Qarabağ insan ömrünün xəzan çağını xatırladan acılı xatirələrlə ömür sürdü. Əgər buna ömür sürmək, yaşamaq, var olmaq deyilərsə. Düşmən tapdağı altında qalan torpaqlarımız, viran olmuş ev-eşiklərimiz uzun illər öz sahiblərinin həsrətini çəkdi. Xocalıya arzuladığımız ədalət, Şuşa üçün xiffətini çəkdiyimiz xoş növraqlı günlər, Ağdamın, Cəbrayılın, Füzulinin ağ taleli çağları yalnız 30 il sonra bizimlə – doğma həmvətənlərimizlə qovuşdu. Həsrətlə, qisas yanğısı ilə ötüb keçən bu illərin çərxi-fələyi yalnız küləkli bir payız səhərində, heç gözləmədiyimiz anda xalqımızın, bütöv Azərbaycanın arzularına sarı döndü. Bəli, 2020-ci ilin sentyabrında, daha dəqiq desək, sentyabr ayının 27-də başlanan və 44 gün davam edən İkinci Qarabağ savaşı uzun illər Azərbaycan xalqının, başda dövlətçilik siyasətimizin beynəlxalq kürsülərdə söylədiyi həqiqətlərin əməldə təcəllisi kimi düşmən üzərində öz sözünü dedi, öz gücünü göstərdi. Bütün dünya ölkələri gördü və dərk etdi ki, Azərbaycan xalqı bu döyüşlərə yalnız əks-hücum əməliyyatı ilə qatıldı. Çünki bu zamana qədər dövlətimiz yalnız və yalnız sülhə, xalqlar arasında dostluq münasibətlərinin qurulmasına can atırdı. Düşmən ölkə buna razı olmasa belə…

Qarabağ zəfəri yalnız ön cəbhədə düşmənlə üz-üzə dayanan əsgərlərimizi, zabitlərimizi yox, elə bütün soydaşlarımızı "dəmir yumruq" kimi bir amal uğrunda birləşdirdi. Payız öz gəlişi ilə ana torpağı 30 illik yuxusundan oyatdı, elimizə, obamıza dirilik gətirdi, xalqımıza qürur verdi, şərəf bəxş etdi. Bu yerdə Xalq şairimiz Nəbi Xəzrinin misraları nə gözəl səslənir:

*Ellərə car çəkən payızın səsi*
*Düzlərə sərt əsən küləklərdədir.*
*Mehriban baharın isti nəfəsi*
*Ancaq ürəklərdə, ürəklərdədir.*

Al-əlvan rəngləri ilə rəssamlara ideya, şairlərə ilham verən qızıl payız xalqımız üçün qəhrəmanlıq dastanının yazıldığı tarixdir artıq. Sentyabrın 27-si – payızın daxil olduğu təqvimdən cəmi 6 gün ötmüşdü ki, ordumuz xain düşmən üzərində qəti və dönməz addımı atdı. Qışın nəfəsinin yavaş-yavaş təbiəti dondurmağa, ana torpağı uzun qış yuxusuna hazırladığı bir zamanda üçrəngli bayrağımızın Şuşa qalasına sancılması ilə hər şeyi anladıq, dərk etdik. O gündən etibarən xalqımız üçün hər payız küləyi, yağışı, çiskini, dumanı ilə, sözün həqiqi mənasında, zəfər payızı oldu, ömürünü başa vurub soyuq torpaq üzərinə düşən hər saralmış yarpaq gözümüzdə zəfər rəmzinə çevrildi…

Gəl, xalqımın zəfər payızı. Gəlişinlə yurdumuza əmin-amanlıq gətir, toy-büsat yetir. Bir zamanlar öz qədəmlərinlə şanlı ordumuza qalibiyyət, xalqımıza başucalığı bəxş etdiyin kimi bundan sonra da yüz illər boyu Vətənimizə qazandırdıqlarınla öyün. Səsin yetdiyi qədər, ünün çatdığı qədər böyük zəfərimizdən danış, Şuşada səslənən azan sədalarından, Kəlbəcərdə, Laçında dalğalanan üçrəngli bayrağımızdan, Xankəndidə, Xocalıda yenidən yurd-yuva salıb, ev-eşik quran həmvətənlərimizdən danış. Şəhid analarımızın, şəhid atalarımızın sınmayan əqidəsindən ürəkdolusu danış. Əsən küləyinlə aləmə səs sal, yağan yağışınla ürəklərimizə sərinlik ver, çiskininlə, dumanınla gözümüzdə Vətənin dörd bir tərəfini canlandır. Gəlişinlə Xəzərin sahillərində varlığına meydan verdiyin xəzrinlə, gilavarınla bizlərdən ağsaçlı Qafqaza salam apar, qocaman Təbrizinə əmin-amanlıq ver, Qərbi Azərbaycan torpaqlarına – o qərib məmləkətə laylalar oxu, ninnilər pıçılda…Və ağızdolusu söylə, de ki, Qarabağ Azərbaycandır!



Məcid RƏŞADƏTOĞLU



# Torpaqla, təbiətlə iç-içə

***Torpaq demişkən, çox yox, təxminən, yarım əsrlik zaman kəsiyini geriyə dönsək, maraqlı bir mənzərə ilə qarşılaşarıq. Həmin vaxtlar necə idi? Yumurtanı qırıb qabıqlarını təbiətə – torpağa atırdılar. Meyvə-tərəvəz artıqları, qabıqları – bunların hamısı təbiətdən gələn və təbiətə geri dönməsinə ehtiyac olan tullantılardır. Amma indi biz nə edirik; o tullantıları zibilə atırıq, şəhərin kilometrlərlə kənarına daşıyırıq, digər zibillərlə qarışdığı üçün bu qədər qiymətli bir gübrə metan qazına çevrilir. İstifadə edilən kimyəvi gübrələr isə torpağı zəhərləyir. Yəni modern şəhər anlayışı, müasirləşmə nəticəsində insanoğlu dövriyyəni bu qədər pozub. Əlbəttə ki, yaşayış məntəqələrinin təmizliyi, tullantıların kənara daşınması normal və təqdirolunası haldır. Amma tullantılar içinə ərzaq qalıqlarının – üzvi gübrə kimi istifadə oluna biləcək məhsulların qarışması prosesi yaxşıdan çox müəyyən mənada digər məcraya yönəldib. Buna görə də hər yerdə qida tullantılarının torpaqla qovuşdurulması indi də əhəmiyyətli məsələdir. Bu mənə bir müddət əvvəl sosial şəbəkələrdən tanış olduğum bir məsələni xatırlatdı.***



90-cı illərin sonunda Pensilvaniya Universitetində işləyən Daniel Janzen və Winnie Hallwachs adında ər-arvad olan ekoloqlar Kosta Rikadakı bir portağal fabriki ilə razılaşaraq onlardan portağal qabıqlarını quraqlaşmış bir ərazıyə boşaltmaqlarını istəyirlər. Fabrik sahibləri təbiətə kömək etmək üçün ekoloqların sözünə qulaq asır və eroziyaya uğrayan bölgəyə 12 min ton portağal qabığı boşaldır. 16 il sonra hər iki ekoloq geri dönüb nəticə ilə maraqlanır, amma quraq ərazini tapa bilmirlər. Çünki artıq hər yer ağaclarla örtülmüşdü. Portağal qabıqları çoraqlaşan ərazinin yenidən canlanmasına kömək etmişdi. Torpaq məhsuldar hala gəlmiş, hər yerdə ağaclar bitmiş və bura heyvanların yaşadığı əraziyə çevrilmişdi. Faktdan böyük fakt yoxdur...





Təsərrüfat inkişaf edərkən bir tərəfdən də əhali artır və daha çox ərzaq ehtiyacı ortaya çıxır. Amma torpaqlar genişlənmir. Buna görə də eyni torpaqda daha çox məskunlaşma ehtiyacı və daha effektiv istehsal yaratmaq ən önəmli məsələyə çevrilir. Birincisi, özünə yetəcək qədər məhsulun istehsal olunması lazımdır. Digər tərəfdən, ehtiyacdan artıq məhsulu saxlayıb mühafizə edəcək imkanların olması lazımdır.

Kifayət qədər məhsulun istehsal olunması üçün mütərəqqi əkinçilik və heyvandarlıq texnologiyalarından istifadə edilməsi, innovativ yeniliklərin bu sahəyə tətbiq olunması, torpaqların, mal-qara və quşların məhsuldarlığının artırılması üçün düzgün sistemlərin seçilməsi əsas şərtlərdəndir. Yalnız bu yolla təsərrüfatçılar bol məhsul istehsal edərək həm özlərini təmin edə, həm də istehlakçıların tələbatını ödəyə bilərlər.

Soyuducu anbarların tikilməsi isə bu istiqamətdəki digər bir problemi – tələbatdan artıq istehsal edilən məhsulun etibarlı mühafizə edilməsi məsələsini həll edir. Təsərrüfatçıların mövsümünə görə istehsal etdiyi müxtəlif çeşidli meyvə-tərəvəz və heyvandarlıq məhsullarının ilboyu saxlanılması və ehtiyac yarandıqca bazara çıxarılıb alıcılara təqdim olunması ərzaq təhlükəsizliyinə etibarlı təminat yaradır.

Həyat, sadəcə, cibimizin qalınlığından ibarət deyil. Həyatın mənası mədəniyyət-incəsənət qədər həm də təbiətlə necə bir ünsiyyət qurmağımızdan asılıdır. Buna görə də müasir dövrümüzdə yaxşı kənd təsərrüfatı, yaxşı istehsal, sağlam qida anlayışı ən böyük hərəkatdır. Artıq texnologiya və innovasiyalar kənd təsərrüfatı məhsulları istehsalçılarının da bir parçası, ən yaxın köməkçisidir. Yaşadığımız bu torpaqlar nəhəng bir istehsal müəssisəsi – ferma kimi təsərrüfatçıların bütün məhsulları ən yaxşı şərtlərlə istehsal etmələrinə imkan verir. Amma hər təsərrüfatçı eyni deyil. İndi təsərrüfatın müxtəlif sahələrində formalaşmış yeni bir brend var: ailə təsərrüfatı.

*(ardı var)*

**Məmməd BABAYEV**

# Kalış kətəsi yemisinizmi?

Naxçıvan mətbəxinə aid olan özünəməxsus təamlardan biri də müxtəlif növ içliklərdən hazırlanan kətə çeşidləridir. Adətən, ət, qarın, balqabaq və ya yaz fəslində dağlarda, daha sonra isə həyətlərdə bitən per-pencərlərdən (göyərti) içliklər hazırlanır. Bu dəfə oxucularımızın çoxuna məlum olmayan maraqlı bir kətə haqqında danışmaq istəyirik. Bu, Culfa rayonunun Yaycı kəndində hazırlanan, elə bu kəndə xas olan "kalış xitabı"dır. Məlumat üçün bildirək ki, bu bölgədə kətəyə "xitab" deyilir.

Daha çox əkinçiliyə yer ayıran yaycılılar ən çox soğan becərməklə məşğuldurlar. Belə ki, Yaycı soğanı adıdadı ilə bazarlarda öz yerini almaqdadır. Bu fəsildə soğanın dib bağlamayan hissələrini dəstə-dəstə toplayıb elə o cür dəstə halında da satırlar. Hər birimizin "kalış soğanı" kimi tanıdığımız bu dadlı soğandan təndirlərdə kətə bişirilir. Onu da qeyd edək ki, kalış soğanı digərlərindən daha az acı olur. Hətta içliyi hazırlayıb dondurucuda qış azuqəsi kimi də saxlayırlar.

Kətənin içliyində adını qeyd etdiyimiz doğranmış halda kalış soğanı azca qaynadılaraq suyu süzülür. Sonra pomidor, acı-şirin bibər, duz-istiot və zövqə görə kim istəsə, öz ağız dadına uyğun əlavələr də edə bilər. Amma içliyin əsas dadı dəyişməsin deyə çox da əlavələrə ehtiyac yoxdur. Xəmiri isə digər kətələrdə olduğu kimi yoğrulur.








Təndirdə bişirilən xitabların da öz forması vardır. Çünki onlar həm təndirdə açıla, həm də hər tərəfi eyni qaydada bişməyə bilər. Belə ki, bu təamlar özünəməxsus qaydada açılır, içlik qoyulur, iki tərəfdən uzunsov formada bükülür. Daha sonra isə digər iki tərəfi zərf formasına bənzər bükülür. Üzərinə yumurta sarısı, sarıçiçək, zəfəran çəkilir. Arxa tərəfinə isə bir-iki damcı su vurularaq bişməsi üçün təndirə yapılır. Bişəndən sonra istəyə görə isti halda içərisinə kərə yağı da əlavə edilə bilər.

Qeyd edək ki, "kalış" sözü yarpaqları iti, uzun, yumşaqbuğumlu, qamışa oxşar bitki mənasındadır. Torpağın şirəsini çəkməməsi, digər dib bağlayan soğanlara maneçilik törətməməsi üçün ərsəyə gəldiyi vaxtlarda mülkiyyətçilər tərəfindən dəstə halında toplanılır.

**Aidə İBRAHİMOVA**

## İtmişdir

Ordubad rayonu, Biləv kənd sakini Səfərova Zeynəb Səfər qızının adına olan JN-251$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Çalxanqala kənd sakini Səmədov Yusif Əbdülrəhman oğlunun adına olan JN-089$^{B}$ nömrəli, 10300018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Qurbanov Qüdrət İbrahim oğlunun adına olan JN-1576$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ərəbyengicə kəndində yaşamış Tağıyeva Siddiqə Amoş qızının adına olan 157 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kürkənd sakini Ələkbərov Sahib Qurban oğlunun adına olan JN-33$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və 27 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Allahverdiyev Vidadi İsmayıl oğlunun adına olan 269$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Zülfüqarova Zeynəb Heydər qızının adına olan 1128$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Əkbərov Bəxtiyar Əkbər oğluna məxsus JN-122$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Vayxır kənd sakini Quliyev Yasin Bəhram oğlunun adına olan JN-44 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Məmmədov Qınyaz Canbaxış oğlunun adına olan JN-233 nömrəli, 10218018 kodlu dövlət aktı, MH-0052649 və MH-0052646 seriya nömrəli çıxarışlar itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Salmanova Adilə Nəcəf qızının adına olan JN-97 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini:
MƏMMƏD BABAYEV

*Ünvan:* AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
*Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 020065441*

Çapa imzalanmışdır 00:00

*Nömrəyə məsul:* Ramiyə Əkbərova
Ceyhun Məmmədov
*Dizayner:* Tacirə Vəliyeva
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 284